

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 23 (663) ▪ 19 iyun 2013 www.vergiler.az Qiyməti: 40 qəp.


# Davamlı inkişaf və yüksəlişin təminatçısı

*Tarix boyu inkişafı önə çəkən ideyalar ətrafında sıx birləşən xalqlar qarşıya qoyduqları məqsədlərə doğru daha inamla irəliləmiş, uğurlu nəticələr əldə etmişlər. Dünya arenasında layiqli yer tutmaq istəyən hər bir millətin milli ideyasının - inkişafın məqsəd və prioritetlərinin olması son dərəcə vacibdir. Hər hansı mütərəqqi ideyanın irəli sürülməsi özlüyündə hələ onun uğuruna tam təminat vermir.*



Gələcəklə bağlı istənilən ideya o vaxt həyati və cəlbedici təsir bağışlayır ki, onun reallaşdırılması mexanizmləri barədə aydın təsəvvürlər də mövcud olsun. Bu isə, ilk növbədə, dövlətə rəhbərlik edən liderin şəxsi idarəçilik keyfiyyətlərindən, gələcəklə bağlı doğru qərarlar qəbul etmək məharətindən asılıdır.

Statusundan, ictimai mövqeyindən asılı olmayaraq, hər bir insanın hansı ideyanın daşıyıcısı, nə əməl sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. İctimai rəyin siyasi vədlərə deyil, konkret faktlara qiymət verməsi anlamında xalqımız kifayət qədər müdrikdir. İnkişafa təminat yaradan hazırkı siyasi kursun davam etdirilməsi üçün cənab İlham Əliyevin ən real şanslara malik olduğunu təsdiqləyən proseslər ötən 10 ildə ictimai rəydə həm də bu siyasətin alternativsizliyi qənaətini yəqinləşdirmişdir. Bəli, cənab İlham Əliyev hər cür pafosdan, populizmdən tamamilə uzaq olan, praqmatik, realist təfəkkürlü liderdir. Ölkə başçısının elə vədi yoxdur ki, ötən 10 ildə bəyanat səviyyəsində, reallaşmamış qalsın. Əksinə, cəmi 10 ildə həyata keçirilən islahatların - real miqyasına, əhəmiyyətinə görə - ən azından onilliklər ərzində reallaşdırılması mümkünlüyü inkarolunmaz faktdır.

Dövlət başçısının 10 illik prezidentlik fəaliyyəti ölkə həyatı üçün strateji əhəmiyyət kəsb edən inkişaf proqramlarının hazırlanması və işlək mexanizmlər əsasında həyata keçirilməsi, ən müxtəlif sahələrdə intibah və tərəqqi prosesinin geniş vüsət alması ilə səciyyəvidir. «Mən hər bir azərbaycanlının prezidenti olacağam» - deyən dövlət başçısı ötən dövrdəki çoxşaxəli fəaliyyəti ilə bu nəcib niyyətini bütünlüklə doğrultmuş, sistemli və düzgün koordinasiya olunmuş fəaliyyəti ilə xalq qarşısında verdiyi bütün vədlərə sadiqliyini sübut etmişdir.

Ötən dövrün reallıqları deməyə əsas verir ki, ölkə başçısı İlham Əliyev hər bir mərhələdə hökumətin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» - tezisini irəli sürmüş Azərbaycan Prezidenti bu siyasəti hər bir ölkə vətəndaşının həyatında gerçəkliyə çevirmək üçün ciddi siyasi iradə, qətiyyət və əzmkarlıq nümayiş etdirmişdir. Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomen siyasi lider obrazını şərtləndirən mühüm elementlər sırasında xüsusi vurğulana bilər.

Ötən illərdə ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmiş, «Ümid», «Abşeron» kimi perspektivli yataqlar kəşf olunmuş, Şərqlə Qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinə başlanılmış, ölkə əhəmiyyətli yol-nəqliyyat sistemi, infrastruktur müasirləşdirilmişdir. Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli məqsədilə boru kəmərlərinin şaxələndirilməsi respublikamızı bütövlükdə Avropa məkanının enerji təhlükəsizliyi sisteminin əsas təminatçılarından birinə çevrilməsini təmin etmişdir. Bu gün Azərbaycan bütövlükdə MDB və Avropa məkanında heç bir ölkədən enerji asılılığı olmayan, müstəqil siyasət yeridən azsaylı dövlətlərdən biridir. Bu fakt özlüyündə Azərbaycanın dünya birliyi üçün önəmini daha da artırmış, respublkamızın Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirmişdir.

Monolit, işlək, çevik komandaya malik dövlət başçısı keyfiyyətcə yeni mərhələdə qarşıda duran əsas vəzifələri düzgün müəyyənləşdirərək, ilk növbədə, milli iqtisadiyyatda kəmiyyət dəyişikliklərinin keyfiyyət müstəvisinə keçirilməsini təmin etmiş, respublikamız 2009-cu ildə MDB məkanında ilk dövlət olaraq iqtisadi sahədə keçid dövrünü başa vurmuşdur. Azərbaycanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, faydalı məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva etmişdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn sərmayələrin qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, «qara qızıl»dan əldə olunan gəlirlərin respublikada güclü insan kapitalının formalaşdırılması məqsədinə yönəldilməsi iqtisadi siyasətin əsas prioritetləri kimi diqqəti çəkir. Bunun nəticəsidir ki, ötən 10 ildə müstəqil Azərbaycan iqtisadi cəhətdən möhkəmlənmiş, qüdrətlənmiş, sosial-iqtisadi yüksəliş, ilk növbədə, insanların gündəlik həyatında özünü daha qabarıq büruzə vermişdir.

Demokratiyanın mühüm göstəricilərindən biri də hökumətin ictimai rəyə münasibəti əsasında müəyyənləşir. İctimai rəy dövlətin işinə nəzarət funksiyasını yerinə yetirməklə müsbət və mənfi meyillərə obyektiv qiymət verən, hökuməti mövcud problemlərin həllinə doğru istiqamətləndirən mühüm mexanizmdir. Ötən 10 ildə hökumətin vaxtaşırı olaraq xalqa hesabat verməsi də milli dövlətçilik tariximizdə mütərəqqi ənənəyə çevrilmiş, demokratik dəyərlərə hörmətin, ictimai rəyə həssas münasibətin ifadəsi kimi diqqəti çəkmişdir. Bu, eyni zamanda, cəmiyyətdə şəffaflığın və sosial ədalət normalarının qorunmasını təmin etmiş, dövlət məmurlarının xalq və prezident qarşısında məsuliyyətini artırmış, onları qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün daha səylə çalışmağa sövq etmişdir. Artıq bir neçə ildir ki, bu cür hesabatlar həm də konkret dövr ərzində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, müstəqil dövlətimizin əldə etdiyi uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması, bu problemlərin həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilmişdir.

Cənab İlham Əliyevin qazandığı uğurların bir mühüm səbəbi də var: dövlət başçısı insan və şəxsiyyət amilini ucaltmaqla hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu nümayiş etdirmişdir. İlham Əliyevin hər iki prezidentlik dövrünün ən böyük uğurlarından biri də Azərbaycan kəndinə şəhər simasının gətirilməsi olmuş, cənubdan şimala, şərqdən qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlər - ən müasir tələblərə cavab verən yeni məktəblər, səhiyyə ocaqları, körpülər, yollar tikilmişdir. Hətta sovet dövründə də mavi yanacaq üzü görməyən Yardımlıya, Lerikə qaz xətti, Qubanın ucqar dağ kəndi Xınalığa isə yol çəkilmiş, daha bir layihənin - strateji əhəmiyyətli Quba-Şamaxı yolunun inşasına start verilmişdir. Bütün bunlar regionlarda mənəvi ab-havanın yaxşılaşmasına səbəb olmaqla Azərbaycan insanının dövlətə, onun rəhbərinə etimadı, sevgini və rəğbətini daha da artırır.

Prezident İlham Əliyevin lider kimi qüdrəti həm də onun gələcək barədə kifayət qədər aydın, realist, nikbin baxışlara malik olmasıdır. YAP-ın son qurultayında dövlətimizin başçısının söylədiyi fikirlər bu baxımdan xüsusi maraq doğurur: «İkinci belə ölkə tapılmaz ki, on il ərzində iqtisadiyyat üç dəfədən çox artsın və bütün başqa statistik göstəricilər də ən yüksək səviyyədə olsun. Hər bir ölkə üçün bu, nümunə ola bilər. Yoxsulluq 6 faizə, işsizlik 5,2 faizə düşübdür. Bir milyon 100 mindən çox yeni iş yeri açılmışdır. Xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bütün beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırır. Ölkəmiz artıq rəqabətqabiliyyətliliyə görə dünya miqyasında 46-cı yerdədir. Çox böyük iqtisadi təşəbbüslər irəli sürülür. Çox böyük islahatlar aparılır. Bu, reallıqdır. Əlbəttə, bu reallıq bizə imkan verir ki, gələcəyə nikbinliklə baxaq, öz gələcəyimizi planlaşdıraq və biz gələcəyimizi planlaşdırırıq. Artıq biz «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının həyata keçirilməsi ilə məşğuluq».

Bütün bunlar deməyə əsasa verir ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xəttin davam etdirilməsi cəmiyyətin siyasi sifarişi, sosial tələbatına çevrilmişdir. 2003 və 2008-ci illərin prezident seçkiləri təsdiqləmişdir ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz və sabit şəraitdə inkişafına imkan verən yeganə strateji seçim olduğunu tam mənası ilə dərk edir.

rəsmi xronika

## Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul etmişdir

Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırmışdır.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, yüksək səviyyədə görüşlərin və qarşılıqlı səfərlərin əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət etdiyi bildirilmişdir. Söhbət zamanı son vaxtlar Bakıda keçirilən mühüm beynəlxalq tədbirlərin ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd edilmişdir.

Dövlətimizin başçısı Prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Türkiyənin Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etmişdir.

## Əməkdaşlıq bütün istiqamətlərdə uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Körfəz Əməkdaşlıq Şurasının baş katibi Əbdül Lətif bin Rəşid Əl-Zəyaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Əbdül Lətif bin Rəşid Əl-Zəyani Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin dövlət başçılarının salamlarını Azərbaycan Prezidentinə çatdırmışdır.

Görüşdə Fələstinə yardım göstərilməsi üzrə Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyəti vurğulanmış, Azərbaycan ilə Körfəz ölkələri arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirilmiş, münasibətlərimizin ikitərəfli formatda və beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyi qeyd edilmişdir. Söhbət zamanı əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin önəmi diqqətə çatdırılmış, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Dövlətimizin başçısı Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin dövlət başçılarının salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Körfəz dövlətlərinin başçılarına çatdırmağı xahiş etmişdir.

## Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının IV qurultayının iştirakçılarına

Hörmətli qurultay iştirakçıları!

Sizi salamlayır və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının IV qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

1999-cu ildə yaradılmış, özündə minlərlə sahibkarı birləşdirən Konfederasiya son illərdə daha da inkişaf edərək, ölkənin ictimai həyatında öz layiqli yerini tutmuşdur.

Bu gün Azərbaycanda dövlət - sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplər müəyyənləşdirilmişdir. Ölkəmizdə ümumi daxili məhsulun həcmində özəl sektorun payı 83 faizə çatmışdır.

Sahibkarlığın dəstəklənməsi dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasının ən önəmli istiqamətlərindən biridir. Zamanın tələblərinə uyğun olaraq aparılan islahatlar, müxtəlif sahələri əhatə edən dövlət proqramları və genişmiqyaslı infrastruktur layihələri, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması sahəsində görülən ardıcıl işlər, özəl sektorun inkişafına dövlət qayğısı nəticəsində sahibkarların sayı sürətlə artır, ən müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr açılır, ölkə iqtisadiyyatına investisiya qoyuluşu genişlənir. Azərbaycanın iş adamları dünyanın bir çox ölkələrində qarşılıqlı fayda əsasında işgüzar əlaqələr quraraq uğurla fəaliyyət göstərirlər.

Hörmətli qurultay iştirakçıları!

Cəmiyyətin tərəqqisi qarşıya daim yeni vəzifələr qoyur. Müasir dövrün inkişaf meylləri sahibkarların məsuliyyətini daha da artırır, zamanın çağırışlarına hazır olmağı tələb edir. Əminəm ki, qurultayın qərarları ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verəcəkdir.

Sizi bir daha təbrik edir, işlərinizdə uğurlar arzulayıram.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 iyun 2013-cü il*


2 Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü

4 Vətəndaş müraciətləri diqqət mərkəzindədir

5 «Vergi dostları» şəbəkəsi genişlənir

8 Milli Qurtuluş Gününə həsr olunmuş velosiped yarışları keçirilib

# Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü

*İyunun 12-də Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) Vergilər Nazirliyi ilə birgə təşkil etdiyi «Vergi partnyorluğu» mövzusunda III Vergi Konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin, Prezident Administrasiyasının, Nazirlər Kabinetinin, Amerikanın Azərbaycandakı səfirliyinin və AmChamın nümayəndələri, Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri və KİV təmsilçiləri iştirak etmişlər.*

### Səmərəli əməkdaşlıq

*Konfransı giriş sözü ilə açan AmCham-ın icraçı direktoru Nərgiz Nəsrullayeva* Vergilər Nazirliyi ilə Amerika Ticarət Palatası arasında əməkdaşlığın mühüm əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatının hər bir sahəsində fəal olan yüzlərlə xarici və yerli şirkəti özündə birləşdirən AmCham ölkədə biznes mühitini yaxşılaşdıran mükəmməl vergi qanunvericiliyinin olmasında maraqlı tərəf kimi çıxış edir. Son illər birgə səmərəli əməkdaşlıq əlaqələri iqtisadiyyatın, vergi sisteminin müxtəlif sahələri ilə bağlı səmərəli müzakirələrin aparılmasına təkan verir. Ölkə iqtisa-



diyyatında, xüsusilə də qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlərin nümayəndənlərinin, eləcə də maliyyə, bank, sığorta, vergi, audit sahəsində təcrübəli mütəxəssislərin iştirakı ilə keçirilən müzakirələrdə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, sahibkarlıq mühitinin yaxşılaşmasına səbəb olan tədbirlərin əhəmiyyəti nəzərdən keçirilir. Bu məqsədlə Palata artıq üçüncü ildir ki, vergi partnyorluğu mövzusunda tədbirlər keçirir, vergitutma sahəsinə aid aktual mövzular ətrafında müzakirələr aparılır, iştirakçılar səmərəli təkliflər irəli sürürlər. Təkilflərin bir çoxu qanunvericiliyin təkmilnləşndirilməsi zamanı nəzərə alınır və beləliklə, bu cür əməkdaşlıq hər iki tərəf üçün əhəmiyyətli və səmərəli, açıq platformanın yaradıldığını göstərir.

«Vergi partnyorluğu» mövzusunda III Vergi Konfransının əsas məqsədinin vergi ödəyiciləri ilə vergi orqanı arasında partnyorluğun yeni mərhələyə qaldırılması və cəmiyyətdə daha yüksək vergi mədəniyyətinə olan ehtiyacı müzakirə etmək olduğunu bildirən xanım Nəsrullayeva AmChamın hazırladığı «Ağ sənəd» kimi tanınan «Azərbaycanda işgüzar mühitin təkmilləşdirilməsinə dair müşahidələr və tövsiyələr» adlı hər il dərc olunan nəşrin növbəti sayı barədə də məlumat vermişdir. Bildirilmişdir ki, «Ağ sənəd» Palataya üzv olan 240-dan çox şirkətin vergitutma, sığorta, maliyyə, bank işi və iqtisadiyyatın digər sahələrini əhatə edən fəaliyyətini əks etdirir.

### Yeni inzibatçılıq modellərinin tətbiqi

*Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov*



nazirliyin ictimai təşkilatlarla sıx əməkdaşlıq etdiyini, onların vergi mühitinin daha da liberallaşdırılmasına, vergi inzibatçılığının təkmilləşdirilməsinə xidmət edən təkliflərinə həssas münasibət göstərildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, bu qarşılıqlı faydalı əməkdaşlıq həm də Vergilər Nazirliyinin fəaliyyətində şəffaflığı və hesabatlılığı təmin etmək niyyətindən irəli gəlir: «Vergilər Nazirliyi fəaliyyətinə ictimai nəzarəti təmin etmək baxımından müxtəlif qeyri-hökumət təşkilatları, o cümlədən AmChamla sıx əməkdaşlıq edir. Ümumiyyətlə, belə təşəbbüskar ictimai qurumların fəaliyyəti sahibkarlıq subyektləri ilə vergi orqanları arasında münasibətlərin daha da dərinləşməsinə yardım edir, tərəflər arasında inam və etimad yaranmasında körpü rolunu oynayır».

Bildirilmişdir ki, ölkə başçısının sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası respublikanın qarşıdakı illərdə dinamik inkişafının qeyri-neft sektoru hesabına təmin edilməsi baxımından strateji əhəmiyyətli sənəddir. İnkişafın gələcək hədəflərini özündə ehtiva edən sənəddə 2020-ci ilədək ümumi daxili məhsulun 2 dəfə artırılması nəzərdə tutulur və son illərdə əldə olunan uğurlu makroiqtisadi göstəricilər, ölkə başçısı tərəfindən imzalanaraq uğurla icra edilən dövlət proqramları, fərman və sərəncamlar bu məqsədin reallaşdırılması üçün geniş imkanlar açır. Konsepsiya ilə, digər dövlət orqanları ilə yanaşı, Vergilər Nazirliyinin də qarşısında bir sıra mühüm vəzifələr müəyyənləşdirilmişdir və hazırda həmin vəzifələrin reallaşdırılmasına hazırlıq görülür.

Qeyd olunmuşdur ki, 2013-cü il 1 yanvar tarixindən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər vergi ödəyicilərinin mənafeyinə tam cavab verməklə, vergi ödəyiciləri ilə sahibkarlıq subyektləri arasında münasibətlərin daha sivil və qarşılıqlı etimad mühiti əsasında qurulmasına xidmət edir. Hazırda sahibkarlıq subyektləri ilə qarşılıqlı inam və etimada söykənən yeni inzibatçılıq modellərinin tətbiqi qarşıda qoyulmuş mühüm məqsədlərdəndir: «Azərbaycanın iqtisadi inkişafının hədəflərinə nail olmaq üçün mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşdırılması istiqamətində tədbirlər sistemli xarakter daşıyır. Qeyri-neft sektorunun inkişafının stimullaşdırılması, vergi daxilolmalarının həcminin artırılması, innovasiya yönümlü iqtisadiyyatın inkişafının təmin edilməsi, əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, vergilərin ödənilməsinin cəmiyyətdə bir normaya çevrilməsinə nail olmaq kimi hədəflərimiz var. Bu hədəflərə nail olmaq baxımından Vergi Məcəlləsində əksini tapmış mühüm yeniliklərdən biri də vergi ödəyiciləri ilə vergi orqanları arasında vergi partnyorluğu sazişinin imzalanmasının nəzərdə tutulmasıdır».

Bildirilmişdir ki, vergi partnyorluğu sahibkarlıq subyektləri və vergi orqanlarının qarşılıqlı faydalı əməkdaşlığına əsaslanan məsuliyyət bölgüsüdür. Məqsəd vergilərin məcburi ödənilməsindən könüllü ödənilməsinə keçidi təmin etməkdir və bu baxımdan, təkcə Vergilər Nazirliyinin deyil, vergi ödəyicilərinin də üzərinə mühüm vəzifələr düşür: «Burada söhbət məsuliyyətin bölüşdürülməsindən gedir. Partnyorluq sazişinin uğurlu nəticələr verməsi üçün yüksək vergi mədəniyyəti, qanunlara hörmət, qarşılıqlı inam və etimad mühüm şərtlərdir.

Vergilər Nazirliyində artıq vergi partnyorluğu sazişinin forması hazırlanmışdır və bununla bağlı sahibkarlıq subyektləri və ictimai təşkilatlarla intensiv məsləhətləşmələr aparılır. Hesab edirik ki, partnyorluq prinsiplərinin tətbiqi vergi orqanları və vergi ödəyiciləri arasında qarşılıqlı inam mühitinin formalaşmasına, nəticədə vergi ödənişlərinin həcminin artmasına, eləcə də təkmil bir formada tətbiqinə müsbət təsirini göstərəcək».

N.Əmirov vurğulamışdır ki, hazırda qarşıda duran mühüm vəzifələrdən biri də iri və orta sahibkarlıq subyektlərinin fəaliyyətində şəffaflığı təmin etməkdir. Son illər vergi inzibatçılığının, vergi güzəştlərinin tətbiqi, ümumən vergi mühitinin təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsinə baxmayaraq, vergidən yayınmağa çalışan çoxsaylı sahibkarlıq subyektləri də mövcuddur: «Vergilər Nazirliyi öz tərəfindən bütün zəruri tədbirləri həyata keçirir ki, sahibkarlıq subyektlərinin fəaliyyəti üçün münbit şərait yaradılsın. Lakin biz bəzən eyni münasibətin və məsuliyyətin şahidi olmuruq. Qanunvericiliyə riayət etmək, vergiləri vaxtında ödəmək lazımdır. Burada bir sıra iri şirkətlərin nümayəndələri iştirak edirlər və mən tədbirdən əvvəl onların Vergilər Nazirliyinə təqdim etdikləri bəyannamələrlə yaxından tanış oldum. 800-1000 işçinin çalışdığı bir sıra böyük şirkətlər aylıq əməkhaqqının cəmi 132 manat olduğunu göstəriblər. Lakin bizim bu və digər məsələlərdə dönüşün baş verəcəyinə gözləntilərimiz böyükdür. Qarşılıqlı inam ikitərəfli olmalıdır və bu istiqamətdə müsbət addımlar atılmalıdır».

### Azərbaycanda mükəmməl vergi sistemi formalaşıb

*Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə* Azərbaycanın son 10 ildə bütün sahələrdə dinamik inkişaf yolu keçdiyini, ümumi daxili məhsulun 3 dəfəyədək artımına nail olunduğunu, ölkəmizin iqtisadi sahədə keçid dövrünü başa vuraraq modernləşmə mərhələsinə qədəm qoyduğunu vurğulamışdır. Bildirmişdir ki, Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlarda - dövlət büdcəsinin formalaşmasında, strateji valyuta ehtiyatlarının artmasında Vergilər Nazirliyinin müstəsna rolu var. Müstəqillik illərində ölkədə müasir tələblərə cavab verən vergi sisteminin yaradılması mümkün olub, müasir iqtisadi münasibətlər şəraitində prinsipial cəhətdən yeni vergi siyasətinin həyata keçirilməsinə başlanılıb. Vergi sistemi təkmilləşdirilib, onun vahid normativ hüquqi bazası yaradılıb, vergi dərəcələrinin aşağı salınması hesabına vergitutma bazası genişləndirilib.

Eyni zamanda, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılması, vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması tədbirləri xüsusi diqqət mərkəzində olub: «Əgər vergi sistemində bu və digər islahatlar həyata keçirilməsəydi, Azərbaycanın hazırkı iqtisadi uğurlarından danışmaq çətin olacaqdı.

Vergi sahəsində həyata keçirilən islahatlar, vergi inzibatçılığının təkmilləşdirilməsi, ən son texnologiyaların tətbiqi vergi ödəyicilərinin intizamının güclənməsinə səbəb olub. Hesab edirəm ki, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sivil məcrada qurulması baxımından, vergi partnyorluğu sazişinin də mühüm rolu olacaqdır».



Bildirilmişdir ki, iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində ölkənin qarşıya qoyduğu əsas hədəflərə yetişməsi, 2020-ci ilədək inkişaf etmiş ölkələr səviyyəsinə yüksəlməsi üçün sahibkarlığın və qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir.

Bu sahədə qanunvericiliyin ildən-ilə təkmilləşdirilməsi ölkədə sahibkarlıq subyektlərinin fəaliyyətinə daha geniş imkanlar açmaqla yanaşı, biznes fəallığının yüksəlməsinə, innovasiya yönümlü iqtisadiyyatın inkişafına imkan yaradır: «Respublikamız iqtisadi inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu mərhələdə yeni iqtisadi sistem formalaşır və vergi sistemi beynəlxalq standartlar əsasında qurulur.

Hökumət ölkə iqtisadiyyatının inkişafında sahibkarlığın həlledici rolunun daha da yüksəldilməsi üçün davamlı tədbirlər həyata keçirir. Yaxın perspektivdə «Sahibkarlıq sahəsində yoxlamaların dövlət tənzimlənməsi haqqında» qanunun qəbulu da bu istiqamətdə yeni imkanlar açacaq».

Qeyd edilmişdir ki, hazırda bir çox beynəlxalq təşkilatlar və iqtisadi qurumlar Azərbaycanda müasir dövrün tələblərinə cavab verən mükəmməl vergi sisteminin formalaşdığını açıq etiraf edirlər: «Azərbaycanda formalaşmış vergi islahatları müasir standartlara tam cavab verir. Bunu müxtəlif beynəlxalq təşkilatlar da açıq qeyd edirlər. Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər zamanı da həmin təşkilatların rəy və təklifləri nəzərə alınıb».

### Azərbaycanın vergi qanunvericiliyi: dəyişikliklər və güzəştlər

*Vergilər Nazirliyinin Strateji araşdırmalar və vergi siyasəti Baş İdarəsinin rəisi Akif Musayev* təqdimatla çıxış edərək bildirmişdir ki, 2001-ci ildən tətbiq olunan Vergi Məcəlləsinə 33 qanunla 815 bənd üzrə dəyişiklik edilib. Bütün dəyişikliklərdə Məcəllənin əsas prinsipi olan vergi yükünün artırılmasına yol verilməməsi gözlənilib, vergi yükü aşağı salınıb, vergitutma bazası genişlənib. Son dəyişikliklərə əsasən, Məcəlləyə bir sıra anlayışlar daxil edilib. Əsas dəyişiklik-



lər sənaye və texnologiya parkları, partnyorluq sazişi, vergi riskləri, onların minimumlaşdırılması, elektron auditlə bağlıdır. Dəyişiklikdən sonra birinci qrup anlayışlar sənaye və texnologiya parklarında rezident hüquqi şəxslər və fərdi sahibkarlar texnika, texnoloji avadanlıq və qurğuların idxalında ƏDV-dən, onların parkdakı əmlaklarına görə əmlak vergisindən, istifadə etdikləri torpaqlara görə torpaq vergisindən, fəaliyyətdən əldə etdikləri gəlirə görə (əməkhaqqından tutulan gəlir vergisi istisna olmaqla) gəlir və ya mənfəət vergisindən 7 il müddətinə azad ediliblər. Parkın idarəedici təşkilatı və ya operatoru müddətsiz olaraq texnika, texnoloji avadanlıq və qurğuların idxalında ƏDV-dən mənfəətin infrastrukturun tikintisi və saxlanılmasına yönəldilmiş hissəsi üzrə mənfəət vergisindən, parkın ərazisində yerləşən əmlaklarına görə əmlak vergisindən, istifadə etdikləri torpaqlara görə torpaq vergisindən azad olunublar.

Partnyorluq sazişi ilə bağlı Məcəllədəki dəyişikliklər barədə qeyd edilmişdir ki, bu sazişin bağlanmasının əsas prinsipi könüllülükdür. Sazişin bağlanması məqsədləri vergilərin düzgün və tam ödənilməsində dövlət orqanlarının inzibati yükünün vergi ödəyiciləri ilə bölüşdürülməsi, vergi ödəyiciləri ilə qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında münasibətlərin qurulması, vergi risklərinə nəzarət sahəsində horizontal monitorinq prinsipini tətbiq etməklə onların minimallaşdırılması və ödəyicinin öz təşəbbüsü ilə «intizamlı vergi ödəyicisi» kateqoriyasına aid edilməsidir.

A.Musayev bildirmişdir ki, Məcəlləyə elektron auditə keçidlə bağlı normalar daxil edilib və mühasibat uçotunu elektron formatda aparan vergi ödəyicilərinin vəzifələri müəyyənləşdirilib. Bu vəzifələrə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron daşıyıcılarındakı məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılması, mühasibat uçotu sənədlərinin elektron və kağız formatında tam oxunaqlı vəziyyətdə 5 ildən az olmayan müddətdə saxlanılması, tələb olunan müddət ərzində sənədlərin və elektron faylların vergi orqanına təqdim edilməsi daxildir.

Bildirilmişdir ki, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi məqsədilə Məcəlləyə bir sıra dəyişikliklər edilmişdir. Daha bir dəyişiklik isə malların (işlərin, xidmətlərin) dəyəri 30 gün ərzində ödənildiyi halda, ƏDV-nin ödənişin həyata keçirildiyi vaxtdan hesablanmasını nəzərdə tutur. Əvvəllər vergi orqanı hesabladığı vergiləri 5 gündən sonra müəssisələrin hesabına sərəncam qoyaraq mübahisəsiz silirdisə, indi 30 gün ərzində şikayət olduğu halda, həmin məsələ məhkəmənin qərarına uyğun həll olunacaqdır.

Vergi güzəştləri və azadolmalar barədə qeyd edilmişdir ki, yeni dəyişikliklərdən sonra gəlir vergisinin yuxarı dərəcəsi 30%-dən 25%-ə, fiziki şəxslərin aylıq və illik gəlirlərinin 14 faiz dərəcəsi ilə vergiyə cəlb olunan məbləği aylıq gəlir üzrə 2000-dən 2500-ə, illik gəlir üzrə 24000-dən 30000-ə qədər artırılıb. Vergi güzəştləri və azadolmaların verilməsi istiqamətində ƏDV-dən azadolmalarla əlaqədar bir sıra dəyişikliklər edilib. Ödənişli təhsil, sığorta agenti və sığorta brokeri xidmətləri göstərən vergi ödəyicilərinin bu fəaliyyətləri, iştirak paylarının və ya səhmlərinin təqdim edilməsi ƏDV-dən azad olunub.

### İntizamlı vergi ödəyicisi...

*«Deloitte &Touch» şirkətinin idarəedici meneceri Nuran Kərimov* «Məsuliyyətli vergi ödəyicisi: praktiki fikirlər» mövzusunda çıxışında vergi ödəyicisinin



davranışına təsir göstərən amillərdən bəhs etmişdir. Qeyd olunmuşdur ki, ödəyicilərin davranışlarına, bir çox faktorlarla yanaşı, iqtisadi amillər də təsir göstərir. Məsələn, maliyyə yükü, qanunvericiliyə əməl olunması üzrə xərclər, cərimələr, vergi amnistiyası təsiredici amillərdəndir. Vergi ödəyicisinin davranış kodeksi sahəsində vergi inzibatçılığının önəminə diqqət çəkilərək bildirilmişdir ki, bu istiqamətdə çəkilən xərclər ağlabatan xarakter daşımalı, qanunvericiliyə əməl olunması asanlaşdırılmalıdır. Qeyri-rezident vergi ödəyiciləri tərəfindən aktivlərin dəyərinin artmasından əldə olunan gəlirlərə görə vergi ödənişlərinin mümkünlüyü də əsas şərtlərdən biridir. Qanunvericiliyə əməl olunması üçünsə qarşılıqlı etimad əsas şərtlərdəndir.

N.Kərimovun sözlərinə görə, 2013-cü ilin yanvar ayından tətbiq edilməyə başlanan vergi partnyorluğu sazişi ödəyici ilə vergi orqanı arasında qarşılıqlı etimadın güclənməsinə töhfə verə bilər. Biznes nümayəndələri üçün stimullaşdırıcı tədbirlərlə yanaşı, Vergi Məcəlləsinin 58.6-cı maddəsinə əsasən, onlara qarşı zəruri hallarda sanksiyalar tətbiq etmək mümkündür. Həmçinin, pozuntu hallarının könüllü etiraf olunması zamanı bəzi hallarda cərimə tətbiq etməmək də mümkün ola bilər. Partnyorluğun əhəmiyyətini anlayan ödəyicinin özü ictimai tərəfdaşlığın formalaşdırılmasında daha maraqlı olmalıdır. Tərəflər, həmçinin, ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin üstünlüklərindən daha asanlıqla yararlanmalıdır.

Vergiqoymanın etik və əxlaqi tərəfləri, vergilərin planlı surətdə azaldılması və vergidən yayınmanın həddinin aşılması, verginin korporativ sosial məsuliyyətin bir növü kimi əhəmiyyəti, vergi məsləhətçilərinin mənəvi öhdəlikləri barədə də ətraflı məlumat verilmişdir.

**Davamı 3-cü səhifədə**

# Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü

**Əvvəli 2-ci səhifədə**

### Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin çeşidi artır

*Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva* «Vergilər Nazirliyinin



elektron xidmətləri» mövzusunda təqdimatında bildirmişdir ki, «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)» ilə vergi orqanlarının funksional fəaliyyətinin vahid kompüter sistemi çərçivəsində avtomatlaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında elektron əlaqəyə keçidin təmin edilməsi, kompüter informasiya sistemi çərçivəsində auditin planlaşdırılması işinin təşkili, müasir tələblərə cavab verən informasiya sistemlərinin yaradılması vergi orqanları qarşısında prioritet vəzifələr kimi müəyyənləşdirilib. Nazirlər Kabinetinin qərarı ilə vergi orqanlarının 57 elektron xidməti təsdiq olunub. Hazırda bu xidmətlərin 46-dan istifadə olunur, digərlərinin isə yaxın zamanlarda tətbiqi nəzərdə tutulur.

Vergi orqanlarında informasiya texnologiyalarının tətbiqinin əsas istiqamətlərinə sahibkarlıq subyektlərinin qeydiyyatı, vergi hesabatlarının təqdim edilməsi və vergilərin ödənilməsi, kargüzarlıq işlərinin təşkili, vergi ödəyicilərinə göstərilən xidmətlərin elektronlaşması daxildir. «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» çərçivəsində 2006-cı ildən tətbiqinə başlanılmış Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) əsas məqsədi çevik və səmərəli vergi inzibatçılığının həyata keçirilməsi, habelə bu məqsədlə müasir tələblərə cavab verən texniki dəstəyin təminidir. Təqdimatda həmçinin qeyd olunmuşdur ki, 2007-ci ildən elektron bəyannamələrin tətbiqinə başlanılıb. Hazırda vergi ödəyiciləri vergi orqanına gəlmədən e-taxes.gov.az - İnternet Vergi İdarəsi vasitəsi ilə öz bəyannamələrini təqdim edə bilirlər. 2012-ci ildə bütün bəyannamələrin 90%-i, ƏDV bəyannamələrinin isə 99,8%-i elektron formada göndərilmişdir. 2008-ci il 1 yanvar tarixindən ƏDV-nin vahid depozit hesabının tətbiqinə başlanıldığı qeyd olunmuşdur: bu sistem ƏDV-nin hərəkətinə və əvəzləşdirilməsinə, ƏDV üzrə dövlət büdcəsinə ödənişlə bağlı vergi ödəyicilərinin əməliyyatlarına vergi orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsinə imkan yaradır. Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə «2009-2012-ci illər üçün Strateji Plan» çərçivəsində ƏDV üzrə vergi inzibatçılığının daha da müasirləşdirilməsi məqsədilə 2010-cu ilin əvvəlindən e-ƏDV hesab-fakturalarının tətbiqinə başlanılıb.

Təqdimatda vurğulanmışdır ki, 2012-ci ildən vergi ödəyicilərinə vergiləri internet üzərindən ödəmək imkanı yaradılıb. Dünya Bankının «Doing Business» qrupunun təhlili göstərir ki, vergi bəyannamələrinin hazırlanması, göndərilməsi və vergilərin ödənişinə sərf olunan vaxt «Böyük səkkizlik» ölkələrində orta hesabla 219 saat (bu, dünyada orta göstəricidən 67 saat azdır), İƏİT üzv ölkələrində 212 saat, Azərbaycanda isə 214 saatdır.

Qeyd edilmişdir ki, 2013-cü ildən Vergilər Nazirliyinin Sertifikat Xidməti Mərkəzinin fəaliyyətə başlaması elektron və mobil imzaların tətbiqi ilə elektron xidmətlərdən vergi ödəyicilərinin daha sürətli, təhlükəsiz və çevik istifadə etməsinə imkan verəcək.




### Partnyorluq sazişi öhdəliklərə könüllü əməletmə səviyyəsini yüksəldəcək

*Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinov* «Vergi daxilolmaları büdcə gəlirlərinin əsas komponentidir» mövzusunda təqdimatında bildirmişdir ki, vergilərin fiskal funksiyası dövlət büdcəsini maliyyə vəsaiti ilə



təmin edir, iqtisadi tənzimləmə funksiyası isə iqtisadi fəallığı stimullaşdırmaqla iqtisadiyyatın inkişafına, vergi daxilolmalarının artımına təkan verir. Vergi daxilolmalarına iqtisadi artım, vergi dərəcələri, vergi güzəştləri, səmərəli vergi inzibatçılığı və vergi ödəyicilərinin könüllü əməletmə səviyyəsi təsir göstərir: «İqtisadi inkişaf vergi daxilolmalarına təsir edən əsas amillərdən biridir. Respublikamızda son 10 il ərzində ÜDM-in səviyyəsi 7 milyard 146,5 milyon manatdan 53 milyard 995 milyon manatadək artmışdır. Buna müvafiq olaraq, büdcə daxilolmaları son 10 ildə 1 milyard 225,5 milyon manatdan 17 milyard 281,6 milyon manata, vergi daxilolmaları isə 823,4 milyon manatdan 6 milyard 25,5 milyon manatadək artmışdır».

Təqdimatda bildirilmişdir ki, Azərbaycanın iqtisadi inkişafının əsas meyilləri neft sektorundan əldə olunan gəlirlərin qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün investisiya istiqamətində yönəldilməsidir. 2007-ci ildə qeyri-neft sektoru üzrə ÜDM-in cəmi ÜDM-dəki xüsusi çəkisi 37,3% olduğu halda, bu göstərici 2012-ci ildə 52,7% olmuşdur. Son 5 ildə bu sahənin sürətli inkişafı Azərbaycan iqtisadiyyatının ən uğurlu göstəricilərindən biridir və qeyri-neft sektorunda ümumi daxili məhsul və vergi daxilolmaları yüksək dinamizmlə artır: «Qeyri-neft sektoru üzrə ÜDM 2003-cü ildə 4 milyard 447,6 milyon manat olduğu halda, 2012-ci ildə bu göstərici 28 milyard 474,9 milyon manat olub. Qeyri-neft sektoru üzrə vergi daxilolmaları isə 2003-cü ildəki 443,7 milyon manatdan 2012-ci ildə 3 milyard 286,6 milyon manatadək yüksəlib. Qeyri-neft sektoru üzrə vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi isə 2003-cü ildəki 10%-dən 2012-ci ildə 11,5%-ə yüksəlib».

Qeyd olunmuşdur ki, Azərbaycan müstəqillik qazandıqdan sonra uzun illər ərzində iqtisadiyyatın əsas problemli məsələlərindən biri ölkədə qeyri-dövlət sektorunun inkişaf etdirilməsi olub. Qeyri-dövlət sektoru üzrə ÜDM 2003-cü ildəki 5 milyard 238,4 milyon manatdan 2012-ci ildə 41 milyard 300,1 milyon manata yüksəlib. Qeyri-dövlət sektorunda vergitutma bazasının genişləndirilməsi nəticəsində bu sektordan vergi daxilolmaları son 10 ildə 12,5 dəfə - 2003-cü ildəki 346,4 milyon manatdan 2012-ci ildə 4 milyard 330,2 milyon manatadək artıb. Qeyri-dövlət sektorunda vergi daxilolmalarının ümumi vergi daxilolmalarındakı xüsusi çəkisi son 10 ildə 42,1%-dən 71,9%-ə yüksəlib.

Təqdimatda vurğulanmışdır ki, qeyri-neft sektoru üzrə ÜDM-in artım faizi ilə vergi daxilolmalarının artım faizi göstəricilərə əsasında 2011-2012-ci illər üzrə elastiklik əmsalının 1-dən yüksək olması vergi daxilolmalarının artımının daha çevik olduğunu göstərir: «Qeyri-neft ÜDM-in artımı 2011-ci ildə 9,4%, 2012-ci ildə isə 9,7% olduğu halda, qeyri-neft vergi daxilolmalarının həcmi 2011-ci ildə 21,9%, 2012-ci ildə isə 14,5% təşkil etmişdir. Bu da müvafiq olaraq elastiklik əmsalının 2011-ci ildə 2,3 və 2012-ci ildə 1,5 olması deməkdir. Başqa sözlə, qeyri-neft sektorunda vergi daxilolmalarının artım sürəti qeyri-neft sektorunda ÜDM-in real artımını 2011-ci ildə 2,3 dəfə, 2012-ci ildə isə 1,5 dəfə qabaqlayıb».

Bildirilmişdir ki, qeyri-neft sektoru üzrə vergi daxilolmalarının büdcə gəlirlərində xüsusi çəkisi bu sektorun əsas göstəricilərindən biridir. Dövlət büdcəsi gəlirlərindən neft gəlirlərinin transferləri və neft sektorunun vergi daxilolmaları çıxıldıqdan sonra bu göstərici 2012-ci ildə 70,9% təşkil edib: «Halbuki 2003-cü ildə bu göstərici 52,5% idi. Son 10 ildə mənfəət vergisinin dərəcəsi 25%-dən 24%-ə, daha sonra 22%-ə və 2010-cu ildən etibarən 20%-ə endirilib. Burada məqsəd müəssisələrin mənfəətinin daha çox hissəsinin onların sərəncamında saxlanılması ilə investisiya imkanlarını artırmaqdır. Qeyri-neft sektorunda mənfəət vergisi üzrə daxilolmalar 2003-cü ildəki 119,4 milyon manatdan 2012-ci ildə 677,4 milyon manata qədər yüksəlib».

Qeyd edilmişdir ki, Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərə əsasən, fiziki şəxslərin muzdlu işdən gəlir vergisi dərəcələrinin yuxarı həddi 30%-dən 25%-ə, 14%-lə vergiyə cəlb olunan gəlirin həcmi isə 2000 manatdan 2500 manata qədər yüksəldilib. Bu tendensiya əvvəlki illərdə də müşahidə edilib: muzdlu işdən gəlir vergisinin yuxarı həddi 35%-dən 30%-ə endirilmişdi. Əhalinin sərəncamında qalan gəlirlərinin artması fonunda gəlir vergisi üzrə vergi daxilolmaları 2003-cü ildə 141,4 milyon manatdan 2012-ci ildə 813 milyon manata yüksəlib. Bundan əlavə, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılan məqsədyönlü işlər vergilərin məcburi ödənişdən daha çox könüllü əməletmə səviyyəsinin artırılmasına istiqamətlənib. Könüllü əməletmə səviyyəsi respublikamızda 2011-ci ildəki 67%-dən 2012-ci ildə 68,3%-ə yüksəlib: «Hesab edirik ki, vergi partnyorluğu sazişlərinin bağlanması könüllü əməletmə səviyyəsinin daha da yüksəldilməsi istiqamətində səmərəli alət olacaq».

### Ən çox rast gələnən itaətsizlik halları

*Vergilər Nazirliyinin Vergi Auditi Departamentinin rəisi Habil Məmmədov* «Vergi ödəyici-



lərində ən çox rast gələnən itaətsizlik halları» mövzusunda təqdimatında bildirmişdir ki, vergi sistemində baş verən islahatlar audit sahəsində də yeni bir strukturun yaradılmasını zəruriləşdirib. 2009-cu ildə Bakı Şəhər Vergilər Departamentinin Audit və Operativ nəzarət idarələrinin bazasında yaradılan Vergi Auditi Departamentinin fəaliyyətinin daha da səmərəli təşkil edilməsi məqsədilə 2010-cu ildə qurumun strukturu dəyişdirilib və fəaliyyət növləri üzrə audit idarələri yaradılıb. Departamentin strukturu dörd əsas qrupu əhatə edir. Hər bir sahə üzrə vergi risklərinin müəyyənləşdirilməsini və risk dərəcələrinin qiymətləndirilməsini həyata keçirən şöbələr, fəaliyyət sahələri üzrə səyyar vergi yoxlamalarını həyata keçirən audit idarələri, operativ nəzarət tədbirlərini həyata keçirən idarə, vergi yoxlamalarına hüquqi dəstək, inzibati və məhkəmə mübahisələrinin araşdırılması və təhlil funksiyalarını həyata keçirən şöbələr mövcuddur.

Yoxlamaların aparılması qaydaları ilə bağlı bildirilmişdir ki, hazırda vergi auditi məqsədləri üçün AVİS-in yaratdığı texniki imkanlar nəticəsində vergi ödəyicilərinin bəyannamə göstəricilərindən və xarici mənbələrdən əldə edilən məlumatlardan istifadə olunmaqla risk meyarları və dərəcələri müəyyənləşir: «Bu sistem bir köməkçi və beş seçim modelindən ibarətdir ki, hər bir model də öz növbəsində müstəqil şəkildə eyni göstəriciləri fərqli istiqamətlərdən təhlil edir. Köməkçi bazaya 16 mənbə üzrə daxil olan məlumatları aid etmək olar. Bundan başqa, köməkçi bazadan istifadə etməklə vergi risklərini müəyyənləşdirən beş model mövcuddur: müxtəlif bəyannamələrin müqayisəli, statistik analizi, maliyyə nisbətləri, xarici məlumatlar və kameral göstəricilər». Qeyd olunmuşdur ki, bütün vergi ödəyicilərinin məlumatları köməkçi bazada mövcud olmaqla, hər model üzrə ayrı-ayrılıqda təhlil edilir. Sistem tərəfindən hər bir vergi ödəyicisi üzrə gizlədilmiş vergi məbləğləri və risk dərəcələri müəyyən edilərək təhlillər aparılır. Nəticədə, vergidən yayınma ehtimalı daha çox olan vergi ödəyicilərinə səyyar vergi yoxlamaları, az olanlara isə operativ nəzarət yoxlamaları təyin edilir.

Təqdimat zamanı səyyar vergi yoxlamalarının müxtəlif texniki və əmək resurslarından istifadə edilməklə, riskli vergi ödəyicilərinin seçilməsindən tutmuş yoxlamaların nəticələrinin rəsmiləşdirilməsinədək olan mərhələləri əhatə edən mürəkkəb bir vergi nəzarəti forması olduğu, son illər nəzarət tədbirləri ilə bağlı planlaşdırma və vergi ödəyicilərinin seçilməsi proseslərinin təkmilləşdirilməsi nəticəsində həm keyfiyyət, həm də kəmiyyət baxımından mühüm nailiyyətlərin əldə edildiyi diqqətə çatdırılmışdır. Səyyar vergi yoxlamaları ilə aşkar edilmiş əlavə vəsaitin ümumu məbləği son 3 ildə (2010-2012-ci illər üzrə) 3 dəfədən çox artaraq 133,6 milyon manatdan 451,7 milyon manata çatıb. Aşkar edilmiş məbləğin dövriyyədəki xüsusi çəkisi isə 1,7%-dən 4,3%-ə yüksəlib. Vergidən yayınma risklərinin düzgün qiymətləndirilməsi və yoxlamaların aparılması proseslərinin təkmilləşdirilməsi nəticəsində vergi ödəyicilərinin səyyar vergi yoxlaması aktları ilə razılaşma indeksi də artıb. Nəticədə son 3 il ərzində səyyar vergi yoxlamaları ilə aşkar edilmiş məbləğlərin ödənilməsinin xüsusi çəkisi 77,4 bənd yüksəlib. Ümumilikdə son 3 il ərzində səyyar vergi yoxlamaları ilə büdcəyə ödənilmiş vəsaitin məbləği 34 dəfə artaraq 387,9 milyon manat olub.

Operativ vergi nəzarətinin səmərəliliyinin artırılması, çevikliyin və vergi qanunvericiliyinin tələblərinin təmin edilməsi məqsədilə Bakı şəhərinin ərazisi 100 sahəyə bölünərək, təhkimçilik prinsipləri əsasında, sahə nəzarəti tətbiq edilməkdədir. Qeyd olunmuşdur ki, Operativ nəzarət idarəsinin maddi-texniki bazası yeniləşdirilib, yeni texnologiyalar və innovativ metodlar vasitəsilə hər bir müfəttişin hərəkətinə real vaxt rejimində nəzarət həyata keçirilir və onun yerləşdiyi ünvan barədə məlumat əldə etmək mümkün olur. Bu tədbirlərin nəticəsidir ki, ötən il qanunsuz sahibkarlıqla məşğul olan 10.324 vergi ödəyicisi aşkarlanaraq barələrində qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülüb.

### Əvvəlcədən vergi şərhi: praktiki məsələlər

*«PWS Azərbaycan» audit şirkətinin vergi və audit üzrə mütəxəssisi Arif Quliyev* transfert qiy-



mətləndirmə metodologiyasının müəyyən edilməsi üzrə vergi ödəyicisi ilə vergi orqanı arasında əvvəlcədən razılaşma (ƏQR) və vergi ödəyicisinin müraciəti əsasında əməliyyat üzrə vergi tətbiqi barədə səlahiyyətli orqanın yazılı şərhi (ƏVŞ) barədə geniş məlumat vermişdir. Bildirmişdir ki, ƏQR və ƏVŞ-nin meydana çıxmasını zəruri edən komponentlər vergi qanunvericiliyinin mürəkkəbliyi və ya qanunvericiliyin müəyyən müddəaları üzrə birmənalı şərhin, eləcə də bazar qiymətlərinin tətbiqi üçün qiymətləndirmə bazasının olmaması və müqayisə edilə bilən eyni və ya analoji əməliyyatların çatışmazlığıdır. Hər iki vasitədən istifadə sayəsində vergi ödəyicisi nəzərdə tutulan əməliyyatın vergi nəticələri üzrə əminlik əldə edə bilir, vergi itkilərinin qarşısını almaq, maliyyə sanksiyaları və cinayət məsuliyyətindən qurtulmaq mümkün olur.

Güzəştli vergi ölkələrində nəzarətdə olan müəssisələrin gəlirinin Azərbaycanda vergiyə cəlb edilməsi qaydaları, ümumi və inzibati xərclərin, eləcə də müxtəlif vergi rejimləri üzrə çəkilmiş ümumi xərclərin bölüşdürülməsi, uzunmüddətli müqavilələr üzrə gəlirin müəyyən edilməsi, hüquqi çəxs yaratmadan birgə fəaliyyətlə bağlı vergi məsələləri, vergidən azad olmaq məqsədilə əvvəllər ölkəmizdə vergiyə cəlb olunmuş dividendlərin müəyyənləşdirilməsinin təsirləri şərh edilmişdir: «İsveçdə ƏVŞ sistemi daha çox inkişaf etmişdir. Bu ölkədə ƏVŞ Şurası müstəqil şəkildə 1991-ci ildən fəaliyyət göstərir. Şura İsveçrənin məhkəmə sisteminin bir hissəsi olan milli vergi məhkəməsi kimi çıxış edir. Dövlət tərəfindən təyin edilmiş 25 nəfər üzv və müavinlərdən ibarət quruma həm vergi ödəyiciləri, həm də vergi orqanı şərh üçün müraciət edə bilərlər. Ərizə verən rüsum ödəməlidir. Böyük ictimai əhəmiyyət kəsb edən məsələlərin şərhi üçün rüsumun məbləği aşağı salına bilər. Vasitəli vergilər üzrə şərhlərin alınmasına isə rüsum ödənilmir. Şərhin əldə edilməsi üçün tələb olunan vaxt orta hesabla 6-8 aydır».

**Davamı 4-cü səhifədə**

# Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü

Əvvəli 3-cü səhifədə

### Vergi inzibatçılığının təkmilləşdirilməsi mühasibat uçotunun təşkilinə müsbət təsir göstərir

*«KPMG Azərbaycan» şirkətinin baş vergi meneceri Müşfiq Əliyev* öz təqdimatında mühasibat və vergi uçotu, vergi inzibatçılığı, «ikili» mühasibat və digər məsələlərə aydınlıq gətirmişdir. O, mühasibat uçotunun insanla-



rın təsərrüfat fəaliyyətinə başladıqları ilk dövrlərdən meydana çıxdığını və norma yaradıcılığı kimi böyük tarixi inkişaf yolu keçdiyini diqqətə çatdırmışdır.

2004-cü ildə qəbul edilmiş «Mühasibat uçotu haqqında» Qanunda müəssisə və təşkilatların maliyyə hesabatlarının milli mühasibat uçotu standartlarına və beynəlxalq tələblərə əsasən hazırlanması nəzərdə tutulub. Qanunla kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçot qaydalarına uyğun maliyyə hesabatları tərtib edilməlidir: «Mühasibat və vergi uçotu ilə bağlı qanunvericiliklər bir-biri ilə əlaqəlidir. Dövlətin fiskal maraqlarının təmini və dövlət büdcəsinə vergilərin ödənilməsinə nəzarətin həyata keçirilməsi üçün mühasibat uçotu məlumatlarından geniş istifadə olunur. Vergi qanunvericiliyinə isə vergi uçotunun aparılması ilə bağlı normalar daxil edilib. Vergi Məcəlləsinin 130.2-ci maddəsinə əsasən, vergi ödəyicisi öz fəaliyyəti ilə bağlı bütün əməliyyatların başlanğıcını, gedişini və qurtarmasını müəyyənləşdirməyə imkan verən uçotun aparılmasını təmin etməyə borcludur».

Təqdimat zamanı mühasibat və vergi uçotunun oxşar və fərqli cəhətlərinə də toxunulmuşdur. Bildirilmişdir ki, «ikili» mühasibat və vergidən yayınma halları həmişə mövcud olub: «Gəlirlərin gizlədilməsi və vergidən yayınma, əmək müqavilələrinin rəsmiləşdirilməməsi, aktivlərin uçotunun aparılmaması və ya tam həcmdə uçota alınmaması vergi inzibatçılığının normal şəkildə həyata keçirilməsində ciddi problemlər yaradır».

Təqdimatda son dövrlər vergi inzibatçılığında mühüm dəyişikliklərin baş verdiyi, bu addımların mühasibat işinin təşkilinə də müsbət təsir göstərdiyi diqqətə çatdırılmışdır.

### Vergi mədəniyyətinin dəyişən səciyyəsi

*«Synergy Group»un Müşahidə Şurasının sədr müavini Fəxriyar Cabbarov* məruzəsində vergi inzibatçılığı və biznes qurumları arasında münasibətlərdə yaranan dəyişikliklərə toxunmuşdur: «Son illər vergi sistemində aparılan islahatların mühüm bir hissəsi də vergi ödəyicilərinin maraq və mənafelərinə xidmət edir. Hazırda daha çox biznes nümayəndələrinin mənafeyini nəzərə alan vergi sistemi formalaşıb. «Vergi yönümlü» sistemdən «vergi ödəyicisi yönümlü» sisteme



mə keçilib. Vergilər Nazirliyinin əldə etdiyi nailiyyətlər sırasında gəlir və mənfəət vergisi dərəcələrinin azaldılması, beynəlxalq vergi müqavilələrinin tətbiqində daha yüksək uyğunluğun təmin olunması, vergi ödəyicilərinə daha təkmil xidmətlərin yaradılması, e-xidmətlərin tətbiq edilməsi və vergi ödəyicilərinə göstərilən yüksək keyfiyyətli xidmətlərin çeşidinin daim genişlənməsi, risklərin idarə edilməsinin daha müasir üsullarının tətbiq olunması, vergi qanunvericiliyinin daim təkmilləşdirilməsi xüsusi qeyd olunmalıdır».

Son zamanlar vergi qanunvericiliyinin təfsiri ilə bağlı vergi orqanları və sahibkarlar arasında iş birliyinin gücləndiyi, kommersiya və biznes məsələlərinin vergi orqanları tərəfindən daha yaxşı anlaşıldığı, biznes prosesləri ilə bağlı daha yüksək məlumatlılıq və diqqətli yanaşmanın müşahidə olunduğu, mübahisəli məsələlərlə bağlı məsləhətləşmələrin aparıldığı, qərarvermə prosesində qanunvericilik çərçivəsində iş birliyinin qurulduğu diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, vergi mədəniyyətinin artması sahibkarlıq subyektlərinin fəaliyyətində tam şəffaflıq və açıqlığa, vergi öhdəliklərinin yerinə yetirilməsi və vergilərdən yayınmanın azalmasına, sənəd və məlumatların könüllü şəkildə təqdim edilməsinə şərait yaradır. Müasir inkişaf meyarları hər iki tərəfdən davamlı hərəkət və əməkdaşlığı artırmağı tələb edir. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da bu məsələlərə yer verilib: «Vergilər Nazirliyinin qarşıdakı illərdə daha çox xidmət, kömək və yardım göstərmək, vergi sisteminin daha da sadələşdirilməsi, hesabat yükünün azaldılması və e-xidmətlərin miqyasının artırılması istiqamətində fəaliyyətini gücləndirməsi istisna deyil. Eyni zamanda, vergi ödəyicilərinin öz öhdəliklərini tam yerinə yetirmələri, könüllü əməletmə və vergi orqanı ilə əməkdaşlığı gücləndirməsi də əsas meyarlardır».

### Hotel sənayesi: inkişaf və problemlər

*«JW Marriot Abşeron» hotelinin maliyyə direktoru Rövşən Məmmədov* qeyri-neft sektorunun əsas bölmələrindən biri olan turizm və hotelçiliyin inkişafından danışmışdır. Qeyd olunmuşdur ki, son illər paytaxda və bölgələrdə iri turizm komplekslərinin açılması, istirahət mərkəzlərinin və hotellərin istifadəyə



verilməsi bu sahədə xidmətin keyfiyyətinin artırılmasını və turizmə yeni mövqedən yanaşılmasını tələb edir. Bu, ilk növbədə, müasir mühasibat sisteminin qurulması ilə bağlıdır. Bir çox hotel və mehmanxanalar müasir texnologiyalardan, avtomatlaşdırılmış idarəetmə sistemlərindən istifadə edir ki, bu da dövriyyənin, müvafiq olaraq, mühasibatda öz əksinin tapmasına səbəb olur. Amma bəzi hotellərin struktur bölmələri olan restoran, idman və əyləncə mərkəzləri, müxtəlif xidmət şəbəkələrində nəzarət-kassa aparatlarının tətbiqi tələb olunur. Hazırda bir sıra hotellərdə NKA-lar müasir tələblərə cavab vermədiyinə görə, elektron mühasibat sisteminə qoşulan, ən müasir tələblərə cavab



verən NKA-ların quraşdırılması zəriridir .

Bildirilmişdir ki, regionlarda yerləşən hotellərdə ATM-lərin, valyuta mübadilə məntəqələrinin də yaradılmasına ehtiyac var: «Son illər turizmin inkişafı ölkəmizə əcnəbi turistlərin axınını sürətləndirib. Azərbaycan ərazisində ödəniş vasitəsi manatdır və digər təsərrüfat subyektləri kimi turizm obyektlərində də əməliyyatlar manatla aparılır. Bölgələrdə bir çox turistlərin valyuta ilə bağlı problemi meydana çıxır, onlar ödənişi manatla apara bilmirlər, təsərrüfat subyektlərinin isə xarici valyutanı qəbul etməyə ixtiyarı yoxdur. Ona görə də müvafiq qurumlar və banklar bu məsələnin həllinə dəstək verməlidir.

### Əsas məqsəd vergi risklərinin minimallaşdırılmasıdır

*«Ernst & Young» şirkətinin baş vergi məsləhətçisi Zaur Qurbanov* «Vergi ödəyicisinin qanunvericiliyə riayət etməməsinin yayılmış halları» mövzusunda təqdimatında vergi ödəyicilərinin qanunvericiliyə riayət etməməsinin müəyyənləşdirilməsi metodlarına toxunmuşdur. Bildirilmişdir ki, vergi nəzarəti və inzibatçılığını təkmilləşdirmək, o cümlədən adekvat vergi siyasətini həyata keçirmək üçün bütün vergi ödəyicilərinin qanunvericiliyə riayətetmə səviyyəsini öyrənmək zəruridir: «Vergi ödəyicilərinin qanunvericiliyə riayət etmələrinin qiymətləndirilməsi meyarları sırasında vergi qeydiyyatı məlumatlarının digər statistik göstəricilərlə müqayisəsini; vaxtında və gecikmə ilə təqdim olunan və ya təqdim edilməyən vergi bəyannamələrinin nisbətini; vaxtında və gecikmə ilə ödənilmiş, yaxud ödənilməmiş vergilərin nisbətini; yoxlama nəticəsində təsdiq olunan və qeyri-dəqiq bəyan edilmiş vergi öhdəliklərinin nisbətini, habelə vergi boşluğunu nəzərə almaq lazımdır. Vergi boşluğu dövlət



büdcəsinə ödənilmiş vergilərin məbləği ilə daxil olmalı vergi məbləği arasındakı fərqdir. Vergi boşluğundan vergi siyasətinin səmərəliliyini; vergi inzibatçılığının effektivliyini; vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə riayət etməsi səviyyəsini müəyyən etmək üçün istifadə olunur».

Bildirilmişdir ki, vergi boşluğu İsveç Vergi Agentliyi tərəfindən 1998-ci ildən etibarən hesablanır. 2007-ci ildən həmin agentlik tərəfindən «Vergi boşluğunun xəritəsi» adlı hesabat hazırlanaraq ictimaiyyətə təqdim olunmaqdadır. 2008-ci ildə dünya üzrə ümumi vergi boşluğu 9% təşkil etmişdir.

Dünya təcrübəsində vergidənyayınma hallarının müəyyənləşdirilməsi mexanizmlərinə də toxunulmuşdur: «Riskli sahələrdə vergi qanunvericiliyinin tələblərinin təmin olunması istiqamətində dünyada tətbiq edilən vasitələr sırasında nağd hesablaşmalara yönəldilən xüsusi vergilər mühüm yer tutur. Meksikada nağd şəkildə banka qoyulan vəsaitlərdən 2% vergi tutulur. İsveçdə restoran və bərbərxanalar öz işçilərinin maliyyə uçotunu aparmalıdırlar. Kanadada tikinti sənayesində subpodratçılara ödənilən məbləğlər barədə hesabatlar təqdim edilir. Fransada real həyat səviyyəsi və bəyan olunmuş gəlir arasında fərq vergi yoxlaması üçün əsas ola bilər. Birləşmiş Krallıqda vergi qanunvericiliyinin pozuntusu aşkar olunmuş vergi ödəyiciləri 5 il ərzində daimi nəzarətdə saxlanılır və s.».

Vergi partnyorluğu sazişinin spesifik bir üstünlüyü - vergi ödəyicilərinin qanunvericiliyə riayət etmələrinə mənəvi-hüquqi məsuliyyət yaratması xüsusi vurğulanmışdır: «Vergi ödəyicisi qanunvericiliyə riayət edəcəyi ilə bağlı üzərinə əlavə öhdəliklər götürür. Vergi orqanı isə, öz növbəsində, müəyyən vasitələrlə məhdudlaşan vergi nəzarətini həyata keçirməyə razılaşır. Beləliklə, vergi partnyorluğu sazişinin əsas məqsədi vergi risklərinin minimallaşdırılmasıdır».

*Öz işini sessiyalarda davam etdirən konfransda vergi orqanı və özəl sektoru təmsil edən mütəxəssislər arasında vergitutma, vergi qanunvericiliyindəki dəyişikliklər və vergi güzəştləri, vergi mədəniyyəti, vergi ödəyicilərinə xidmət vasitələri, mühasibat təcrübələri və onun vergi inzibatçılığına təsiri, Vergilər Nazirliyinin elektron xidmətləri və digər mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.*

**E.CƏFƏRLİ**
**S.MUSTAFAYEV**

# Vətəndaş müraciətləri diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin iclaslarında ölkəmizdə həyata kecirilən bütün tədbirlərin, islahatların, dövlətin yeritdiyi siyasətin mahiyyətində insan amilinin, ölkə vətəndaşının rifahının dayandığını vurğulamış və bütün vəzifəli şəxslərin də bu prinsiplərlə çalışmasının vacibliyini qeyd etmişdir. Ölkə başçısı bildirmişdir ki, bu gün hər bir Azərbaycan vətəndaşı Konstitusiyada təsbit olunmuş hüquqlarından istifadə edərək özünün və yaşadığı kəndin, rayonun, şəhərin problemlərini müvafiq dövlət orqanları qarşısında rahatlıqla qaldıra bilir.*

Vətəndaşları narahat edən problemlərin aradan qaldırılması, regionlarda işlərin daha da sürətlə aparılması üçün ölkə başçısı tərəfindən bu il 36 sərəncam imzalanmış, Prezidentin Ehtiyat Fondundan və dövlət büdcəsindən 146 milyon manatdan artıq vəsait ayırılmışdır.

Mütəmadi olaraq vətəndaşların rəy və təkliflərini öyrənən ölkə başçısı, ilk növbədə, bütün məsələlərdə ədalətli qərarların qəbul olunmasını ön plana çəkir: «Cəmiyyətdə sosial ədalət prinsipləri tam şəkildə tətbiq edilməlidir. Bunu bizim əsas Qanunumuz - Konstitusiya tələb edir və ümumi normal davranış elə olmalıdır ki, sosial ədalət prinsipləri pozulmasın. Çünki deyə bilərəm ki, insanları narahat edən ən böyük məsələ ədalətsizlikdir, həyatda da, siyasətdə də, hər bir sahədə də. Ona görə də ədalət, sosial ədalət olmalıdır və bütün qərarlar ədalətli olmalıdır».

***Yerlərdə əhali ilə mərkəzi icra hakimiyyəti orqanı rəhbərləri arasında birbaşa ünsiyyət gücləndirilir***

Prezident Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov bildirmişdir ki, vətəndaşların problemlərinin daha yaxından öyrənilməsi, müvafiq tədbirlər görülməsi məqsədilə Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq respublikanın mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumları rəhbərlərinin yerlərdə səyyar qəbullar keçirmələri vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Hər ay respublikanın mərkəzi icra hakimiyyəti orqanınlarının rəhbərləri regionlarda olur, vətəndaşları qəbul edir, onların qaldırdıqları məsələlərin həlli istiqamətində tədbirlər görürlər. Bu qəbulların əsas məqsədi yerlərdə əhali ilə birbaşa ünsiyyət yaradılması, real vəziyyətin öyrənilməsi və mümkün olan hər bir məsələnin operativ həll edilməsidir.

Yeri gəlmişkən, vergilər naziri Fazil Məmmədov aprelin 18-də Gəncə şəhərində, aprelin 19-da Tovuz şəhərində, mayın 17-də Quba şəhərində 158 nəfər vətəndaşı qəbul etmişdir. İyunun 20-də isə vergilər naziri Lənkəran şəhərində cənub bölgəsinin sakinlərini qəbul edəcək, onların müraciətlərinə baxacaqdır. Bölgələrdə vətəndaşların müraciətləri, əsasən, vergi inzibatçılığı, işə qəbul, şəxsi və digər məsələlərlə bağlı olmuşdur. Qəbul edilmiş vətəndaşlara müvafiq izahatlar verilmiş, onların əksəriyyətinin müraciəti müsbət həll olunmuş, hər bir müraciətin mahiyyəti araşdırılmış və ya aidiyyəti dövlət orqanlarına göndərilmişdir. Qəbul zamanı vətəndaşların diqqət və qayğı ilə dinlənilməsi, problemlərin nə dərəcədə əsaslı olub-olmadığının öyrənilməsi, həlli mümkün olan məsələlər barədə dərhal lazımi göstərişlər verilməsi vergi ödəyicilərinin razılığı ilə qarşılanmışdır. Belə qəbulların bundan sonra da müntəzəm olaraq keçirilməsi nəzərdə tutulur.

***Vergilər Nazirliyinə və yerli vergi orqanlarına daxil olmuş vətəndaş müraciətləri diqqətlə araşdırılır***

Vergilər Nazirliyində vətəndaş müraciətlərinə baxılması sahəsində hər hansı vəzifəli şəxs tərəfindən yol verilmiş nöqsanlara görə ciddi tədbirlər görülür. 2006-cı il fevralın 1-dən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiq edilməsi nəticəsində vergi orqanlarında sənədlərin icrası, vətəndaş müraciətlərinə baxılması proseslərini əvvəldən axıradək izləməyə imkan verən dəqiq və kifayət qədər təkmil nəzarət sistemi yaradılmışdır. Nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az) vətəndaşların birbaşa vergilər nazirinə və digər rəhbər işçilərə müraciət etmələri üçün imkan yaradılmışdır. Həmçinin, «195» Çağrı Mərkəzinə müraciət edənlər vergilərlə bağlı coxsaylı suallarına rahatlıqla cavab tapa bilirlər.

2013-ci ilin ötən 5 ayı ərzində dövlət vergi orqanlarına cəmi 32048 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8228 və ya 25,7% çoxdur. Daxil olmuş müraciətlərdən 31493-ü (98,3%-i) ərizə, 508-i (1,6%-i) şikayət, 47-si (0,1%-i) təklif olmuşdur. Şikayətlərin 136-sı eyni, 32-si təkrar xarakter daşımışdır. Daxil olan faktiki şikayətlərin sayı ötən ilin müvafiq dövrünə nisbətən 34 ədəd və ya 11,1% artmışdır. Şikayətlərin faktiki sayından 47,6%-i operativ nəzarət, 18,8%-i audit, 17,6%-i bəyannamə, 16%-i digər sahələri əhatə etmişdir. Şikayətlərin 221-i (43,5%-i) əsassız sayılmış, 108-i (21,3%-i) barədə müvafiq izahatlar verilmiş, 67-si (13,2%-i) müsbət həll olunmuş, 19-u (3,7%-i) aidiyyəti üzrə göndərilmiş, 11-i (2,2%-i) qismən həll olunmuş, 82-si (16,1%-i) icradadır.

**Rəşad SADIQOV**

# «Vergi dostları» şəbəkəsi genişlənir

*Vergilər Nazirliyinin 2011-ci ildə qəbul etdiyi «Vergi ödəyicilərinə xidmət konsepsiyası»na uyğun olaraq həyata keçirilən «Vergi dostları» layihəsi çərçivəsində ucqar kənd və qəsəbələrdən secilmiş müəllimlər vergilərin təbliğində, əhalinin, vergi odəyicilərinin məlumatlandırılmasında və maariflendirilməsində vergi əməkdaşlarına kömək göstərirlər. Vergilər Nazirliyi isə bu işdə onlara həm metodiki dəstək göstərir, həm də elektron vasitələrdən istifadə imkanları yaratmaqla vergi təbliğatı işini səmərəli qurmağa çalışır.*



**Daha 232 müəllim «vergi dostu» oldu**

İyunun 13-də Lənkəran,14-də isə Masallı şəhərində keçirilmiş yığıncaqlarda Təhsil Nazirliyinin dəstəyi ilə cənub bölgəsinin 7 rayonunun (Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Biləsuvar və Yardımlı) ümumtəhsil məktəblərindən seçilmiş 232 nəfər müəllimə «vergi dostu» sertifikatları və kompüterlər təqdim edilmişdir. Mərasimdə Lənkəran və Masallı rayon icra hakimiyyətlərinin, Vergilər Nazirliyinin, 6 saylı Ərazi Vergilər İdarəsinin rəhbər vəzifəli şəxsləri, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Lənkəran Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsal Nəsirli və Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Seymur Nağıyev öz çıxışlarında respublikamızda həyata keçirilən iqtisadi islahatlar və görülən məqsədyönlü işlər nəticəsində bölgədə sahibkarlığın inkişafında əldə olunmuş nailiyyətləri qeyd etmiş, vergilərin dövlət büdcəsinə tam və vaxtında ödənilməsi sahəsində atılan hər bir addımın ölkəmizin tərəqqisində böyük rol oynadığını bildirmişlər.

**Hər yerdə vergi təbliğatı**

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov son illərdə vergi sistemində həyata keçirilən islahatlar, büdcəyə vergi daxilolmalarının artım dinamikası, vergi ödəyicilərinə göstərilən xidmətlər haqqında ətraflı məlumat vermişdir: «Vergilər Nazirliyi tərəfindən şəffaflığın artırılması, vergi ödəyicilərinə elektron xidmətlərin göstərilməsi, «195» Çağrı Mərkəzinin təkmilləşdirilməsi ilə bağlı geniş spektrli layihələr həyata keçirilir. Vergi ödəyiciləri ilə vergi orqanı əməkdaşları arasında təmasların minimuma endirilməsi, bunun əvəzində elektron xidmətlərin səviyyəsinin və keyfiyyətinin artırılması istiqamətində nazirliyin gördüyü işlər vergi ödəyicilərinin işini asanlaşdırmağa, vergiləri vaxtında və könüllü şəkildə dövlət büdcəsinə ödəmələrinin təmin olunmasına xidmət edir».

Bildirilmişdir ki, təxminən 2 min işçisi olan vergi orqanlarının 500 mindən çox vergi ödəyicisinə xidmət göstərməsi, bu sahədə baş verən yeniliklər haqqında ödəyiciləri məlumatlandırması fiziki cəhətdən çox çətindir: «Bu işdə cəmiyyətdə böyük nüfuza sahib olan müəllimlərin imkanlarından istifadə etməyin daha səmərəli olacağını nəzərə alaraq, onları maarifləndirmə işlərinə cəlb etmək qərarına gəldik. Məqsəd hər yerdə vergi təbliğatı işlərini genişləndirməkdir. Ucqar kəndlərdə öz biznesini qurmaq istəyən insanların məlumatlandırılması üçün belə bir şəbəkənin yaradılmasına böyük ehtiyac hiss olunurdu. Hesab edirəm ki, bu işlər uğurla həyata keçiriləcək və müsbət nəticələr əldə olunacaq».

Qeyd edilmişdir ki, «vergi dostu» işlədiyi məktəbdə, yaşadığı regionda əhali arasında vergilərə dair maarifləndirmə və təbliğat işlərini həyata keçirir, vergi sistemində tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandırır, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edir. Vergi məfhumunun hər bir evə, hər bir ailəyə daxil olması vergi mədəniyyətini şərtləndirən amillərdəndir və bu işə cəmiyyətin bütün üzvlərinin cəlb edilməsi vacibdir. Hazırda 500-dən çox olan «vergi dostları»nın sayının qarşıdakı bir il ərzində 2000-ə çatdırılması nəzərdə tutulur.

**Fəal «vergi dostları» mükafatlandırılacaq**

6 saylı ƏVİ-nin rəisi Xosrov Ələsgərov bildirmişdir ki, «Vergi dostları» şəbəkəsinə üzv olan müəllimlərlə mütəmadi olaraq görüşlər keçiriləcək, onlar gördükləri işlər barədə idarəyə vaxtaşırı məlumatlar verəcək və vergi orqanları tərəfindən bütün lazımi vəsaitlərlə təmin olunacaqlar. Gələcəkdə stimullaşdırıcı tədbirlər davam etdirilərək daha fəal «vergi dostları» mükafatlandırılacaqlar.

Sonra «vergi dostları»na üzvlük sertifikatları, «vergi dostu»nun yaddaş kitabçası, məlumatlandırıcı və maarifləndirici bukletlər, kompüterlər təqdim olunmuşdur.

**«Vergi dostları» layihəsinin əhəmiyyəti yüksək qiymətləndirilir**

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdir müavini Güloğlan Bağırov «Vergi dostları» layihəsini müsbət qiymətləndirərək bildirmişdir ki, cənub bölgəsindən olan pedaqoqlar vergi təbliğatının aparılmasında vergi əməkdaşlarına əllərindən gələn köməyi göstərəcəklər. Bununla onlar həqiqətən də həm vergi əməkdaşlarının, həm də vergi ödəyicilərinin dostları olduqlarını sübut edəcəklər.

Masallı Rayon Təhsil Şöbəsinin müdir müavini Sultanağa Cəfərov belə bir tədbirin cənub bölgəsində keçirilməsindən məmnun olduğunu qeyd etmişdir: «Müəllimlərimiz bu işlərdə fəallıq göstərəcəklər. Çünki onlar bilirlər ki, əməkhaqlarının ödənilməsi, pensiyaların verilməsi və s. üçün vergilərin dövlət büdcəsinə vaxtında köçürülməsi vacibdir. Odur ki, insanlar arasında vergi mədəniyyətinin formalaşdırılmasında müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Biz məsuliyyətimizi dərk edərək bu işlərin həyata keçirilməsində əlimizdən gələni etməyə hazırıq».

Lerik rayonu Barzavu kənd orta məktəbinin müəllimi Sədaqət Əliyeva yerlərdə vergilərlə bağlı maarifləndirmə işinin artırılmasına böyük ehtiyac olduğunu qeyd etmişdir. Onun sözlərinə görə, kənd müəllimlərinin bu sahədə əldə etdikləri məlumatları sakinlərlə, vergi ödəyiciləri ilə bölüşdürməsi çox böyük əhəmiyyət kəsb edir: «Hər zaman yeniliklər edən Vergilər Nazirliyinin bu layihəsi gələcəkdə vətəndaşların vergidən yayınmasının qarşısının alınmasına yardımçı olacaq. Müəllimlər təkcə təhsil sahəsində deyil, digər sahələrdə də cəmiyyətin fəal təbəqəsini təşkil edirlər. Hesab edirəm ki, onlar bu layihədə də layiqincə fəallıq göstərəcəklər».

Astara rayonu Suparibağ kənd tam orta məktəbinin müəllimi Rahim Həsənov layihəyə həvəslə qoşulduqlarını bildirmişdir: «Kəndimizdə layihənin uğurla həyata keçirilməsi üçün əməyimizi əsirgəməyəcəyik. Çalışacağıq ki, yaşından asılı olmayaraq hər kəsin vergi sahəsində məlumatlandırılması təmin edilsin. Əhali verginin ölkə iqtisadiyyatında nə qədər önəmli olduğunu bilməlidir».

Yardımlı rayonu Vəlixanlı kənd orta məktəbinin müəllimi Zakir Rufullayev: «Məktəbimiz Təhsil Nazirliyi və Vergilər Nazirliyi tərəfindən çap olunan dərs vəsaitləri ilə təmin olunub. Həmin dərsliklər vasitəsilə əlavə məşğələlərdə vergi ilə bağlı anlayışları uşaqlara başa salır, gələcəyin şüurlu vergi ödəyicilərinin yetişdirilməsinə çalışırıq».

**Rəşad SADIQOV**

# Vergilər haqqında etüdlər

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi, iqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Akif Musayevin «Vergilər haqqında etüdlər» kitabı işıq üzü görüb. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub və vergilərin bəzi problemlərini elmi-kütləvi şəkildə işıqlandırmaq məqsədilə yazılıb.*

«Vergilər haqqında etüdlər» kitabı vergilərin müxtəlif aspektlərinin elmi-publisistik üslubda, ədəbi-bədii parçalardan və maraqlı foto illüstrasiyalardan geniş istifadə edilməklə arayaərsəyə gəlmişdir. Geniş oxucu kütləsinin maraqlarını nəzərə alan kitabda ayrı-ayrı mövzuların qoyuluşu və təqdimatı insanları maarifləndirmək baxımından lazımlı və əhəmiyyətliditr. Kitabda yer alan 40 etüdün hər biri ayrıca mövzuya həsr olunub. Bu etüdlər vergilərin yaranması, təkamülü və müasir inkişaf istiqamətləri, vergi mədəniyyətinin elementləri, vergi siyasətinin xüsusiyyətləri haqqında maarifləndirici və düşündürücü məlumatlarla zəngindir.




Vergi siyasətində və vergiqoyma təcrübəsində istifadə olunan bəzi kateqoriya və anlayışların kitabda tamamilə yeni bədii-populyar dildə izahlarının verilməsi maarifləndirmə və məlumatlandırma baxımından özünü doğruldan uğurlu cəhddir. Vergi siyasətinin inkişaf tarixi ilə yanaşı, onun iqtisadi siyasətin digər tərkib hissələri ilə əlaqəsinə də kitabda geniş yer ayrılmışıdır.

Onu da qeyd edək ki, Akif Musayev respublikamızda vergilərin, ümumilikdə iqtisadi problemlərin araşdırılmasında çox böyük fəaliyyət göstərmiş və bu sahədə elmi-tədqiqat istiqamətlərinin əsasını qoymuşdur.

# Qaliblər mükafatlandırıldı

*İyun ayının 7-də 13 saylı Ərazi Vergilər İdarəsində Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə keçirilmiş rəsm müsabiqəsinin qaliblərinin mükafatlandırılması həyata keçirilmişdir.*

Tədbirdə 13 saylı Ərazi Vergilər İdarəsinin rəis müavini, vergi xidməti müşaviri Rəhman Məmmədov, Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi, vergi xidməti müşaviri Həsən İsrafilov, Vergi ödəyicilərinə xidmət şöbəsinin baş dövlət vergi müfəttişi Taləhə Mustafayeva, müsabiqənin qalibləri və onların valideynləri iştirak etmişlər.



Rəhman Məmmədov ölkədə aparılan vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən orta və ali təhsil müəssisələrində şagird və tələbə heyətinin vergilər haqqında bilik və anlayışlarının artırılması və onlarda vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi uğurlu siyasətdən, bu siyasətin bariz nümunəsi kimi Vergilər Nazirliyinin Təhsil Nazirliyi ilə birgə lahiyəsi çərçivəsində «Vergi dostları» şəbəkəsinin yaradılmasından, orta məktəblərdə təşkil olunmuş tədris-metodiki kabinetlərin şagirdlərin vergilər haqqında biliklərinin artırılmasındakı önəmli rolundan geniş məlumat vermişdir. Tədbirdə ölkəmizdə gənc nəslə göstərilən diqqət və qayğıdan bəhs olunan video-rolik yayımlanmışdır. Rəsm müsabiqəsinin qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim edilmişdir.

Sonda müsabiqədə fərqlənən şagirdlər və onların valideynləri 13 saylı ƏVİ-nin rəisi vəzifəsini icra edən Pərvin Əhmədovda görüşmüşlər. P.Əhmədov şagirdlərə təhsildə uğurlar arzulamış və gələcəkdə belə tədbirlərin mütəmadi keçiriləcəyini bildirmişdir.

Valideynlər Vergilər Nazirliyinin təşkil etdiyi rəsm müsabiqəsində iştirak edən şagirdlərə diqqət və qayğı ilə yanaşıldığı üçün nazirliyin rəhbərliyinə təşəkkürlərini bildirmişlər.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Cari ilin yanvar-may aylarında Azərbaycanda sənayenin qeyri-neft bölməsində məhsul istehsalı **2,4%** artmış, neft sektorunda isə **0,8%** azalmışdır.
- İqtisadi və sosial sahələrdə muzdla işləyənlərin orta aylıq əməkhaqqı yanvar-aprel aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə 7,3% artaraq **406.8 manata**, bir nəfərə düşən gəlirlər isə 5,4% çoxalaraq **1403.2 manata** çatmışdır.
- Maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin məbləği may ayının 1-nə **13.5 milyard manata** çataraq ötən ilin may ayının 1-nə nisbətən 29,2% artmışdır. Verilmiş kreditlərin **10 milyard manatı** uzunmüddətli olmuşdur.
- Əhalinin banklardakı əmanətlərinin həcmi keçən illə müqayisədə 32,9% artaraq may ayının 1-nə **5.8 milyard manata** çatmışdır. Milli valyuta ilə qoyulmuş əmanətlərin məbləği **3.5 milyard manat**, xarici valyuta ilə qoyulmuş əmanətlər isə **2.3 milyard manat** olmuşdur.

# Sahibkarlığın inkişafı əsas prioritetlərdəndir

*Ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əlverişli biznes mühitinin yaradılması məqsədilə dövlətin apardığı siyasət bu gün hər bir sahibkarın həyatında hiss edilir. Sahibkarlığa Kömək Milli Fondunun yaradılması sahibkarların öz bizneslərini inkişaf etdirməsi, fəaliyyət dairəsini genişləndirməsində mühüm rol oynayır.*

Fondun qarşısında ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini qanunvericiliyə uyğun maliyyələşdirmək, maliyyə bazarlarından ehtiyatların cəlb olunması üçün tədbirlər görmək və uyğun kredit mənbələrini formalaşdırmaq, güzəştli kreditlərin alınması üçün investisiya layihələrinin tərtib olunmasına dair minimal tələbləri və investisiya layihələrinin qiymətləndirilmə meyarlarını müəyyən etmək kimi vəzifələr durur. Sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi üçün verilmiş vəsaitlərin səmərəli və təyinatı üzrə istifadəsinə nəzarət etmək və bu məqsədlə monitorinqlərin keçirilməsi qaydalarını müəyyənləşdirmək, maliyyələşdiriləcək investisiya layihələrinin ekspertizasını həyata keçirmək, sahibkarlığın inkişafına yönəldilmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsinə diqqəti gücləndirmək, sahibkarlıq subyektləri üçün kadrların hazırlanmasına və onların ixtisaslarının artırılmasına dəstək vermək kimi vəzifələr də fondun öhdəliklərindəndir.






Sahibkarlara verilən güzəştli kreditlər «Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları» ilə müəyyən edilir. Fondun vəsaitlərinin istifadə istiqamətləri südlük və ətlik təyinatlı cins heyvandarlıq komplekslərinin, quşçuluq təsərrüfatlarının, ət kəsimi və emalı müəssisələrinin, iri taxılçılıq və ya toxumçuluq təsərrüfatlarının, üzümçülük təsərrüfatlarının və üzüm emalı müəssisələrinin, istixana komplekslərinin, intensiv bağçılıq və ya tingçilik təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin, meyvə-tərəvəz və taxıl tədarükü, saxlanması satışı məqsədi ilə soyuducu anbar və taxıl anbarı komplekslərinin yaradılmasını, çörək istehsalı zavodlarının tikilməsini, Sumqayıt Kimya, Balaxanı Sənaye parkları və bu parklarda yaradılan müəssisələrin maliyyələşdirilməsini, digər sənaye müəssisələrinin qurulmasını və kiçik sahibkarlığın inkişafını əhatə edir.

### Sahibkarlar güzəştli krediti necə əldə edə bilərlər?

«Qaydalar»a əsasən, kreditin ayrılması üçün sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Müvəkkil kredit təşkilatı sahibkarlıq subyektləri tərəfindən edilmiş müraciətləri qeydiyyata alır və sahibkara müraciətin qeydiyyata alınmasını təsdiq edən müvafiq sənəd təqdim edir. Müvəkkil kredit təşkilatları 10 iş günündən gec olmayaraq öz biznes maraqları və fondun müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər və qiymətləndirmə meyarlarına əsaslanaraq investisiya layihələrini təhlil edir və müsbət qiymətləndirdiyi layihələrə dair fondun müəyyən etdiyi məlumatları və sənədləri fonda təqdim edir. İnvestisiya layihəsi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə isə müvəkkil kredit təşkilatları tərəfindən 3 iş günü müddətində əsaslandırılmış imtina məktubu verilir.

Sahibkarlıq subyektləri ilə kredit müqaviləsi bağlandıqdan sonra müvəkkil kredit təşkilatları tərəfindən kredit vəsaitinin ayrılması barədə fonda sifariş göndərilir. Fond 3 iş günü ərzində vəsaitlərin müvəkkil kredit təşkilatlarına ayrılmasını təmin etməlidir. Ayrılmış vəsait müvəkkil kredit təşkilatının müxbir hesabına daxil olduqdan sonra kredit təşkilatı 2 iş günü ərzində vəsaiti sahibkarlıq subyektinin hesabına köçürür və bu barədə fonda və sahibkarlıq subyektinə məlumat verir.

Fondun Müşahidə Şurası tərəfindən müəyyən edilmiş meyarlara uyğun olaraq, Mərkəzi Bank tərəfindən lisenziya verilmiş bütün banklar və bank olmayan kredit təşkilatları müvəkkil kredit təşkilatı kimi güzəştli kreditlərin verilməsində iştirak edə bilərlər.

### Kreditlərin həcmi

Sahibkarlıq subyektlərinə fond tərəfindən verilən kreditlərin həcminə gəlincə, kiçik həcmli kreditlərin məbləği 5000 manatdan 50000 manatadək, orta həcmli kreditlər 50001 manatdan 500000 manatadək, böyük həcmli kreditlər isə 500001 manatdan 10000000 manatadəkdir. Hər bir sahibkarlıq subyektinin fondun vəsaitləri hesabına aldığı güzəştli kreditin maksimum həddi 10000000 manatdan artıq ola bilməz. Fondun güzəştli kreditlərinin müddətləri isə kiçik həcmli kreditlər üçün 3 ilədək, orta həcmli kreditlər üçün 5 ilədək, böyük həcmli kreditlər üçün 10 ilədəkdir.

Bildirək ki, bu ilin ötən dövrü ərzində Fondun vəsaitləri hesabına sahibkarlıq subyektlərinin 1721 investisiya layihəsinin maliyyələşdirilməsinə 155,8 milyon manat güzəştli kredit verilmişdir ki, bu kreditlərin reallaşdırılması 6400-dən çox yeni iş yerinin yaradılmasına imkan yaradır.

**AYTƏN**

# Ümumi daxili məhsul istehsalı artıb

*Ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlar, habelə fiziki şəxslər tərəfindən 2013-cü ilin ötən beş ayı ərzində 22.1 milyard manatlıq və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,5% çox Ümumi Daxili Məhsul (ÜDM) istehsal edilmişdir. ÜDM-in 62,7%-i məhsul istehsalı sahələrində, 30,9%-i xidmət sahələrində yaradılmış, 6,4%-i isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Hər nəfərə ÜDM məhsul istehsalı 2389.0 manat (3044.4 ABŞ dolları) təşkil etmişdir.*

Ev təsərrüfatlarının və hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət göstərənlərin istehsal etdikləri sənaye məhsulu da nəzərə alınmaqla, yanvar-may aylarında 14.1 milyard manatlıq və ya 2012-ci ilin müvafiq dövründəkindən 0,2% az sənaye məhsulu istehsal edilmişdir. Məhsulun 74,3%-i mədənçıxarma bölməsində, 19,5%-i emal bölməsində, 5,6%-i elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,6%-i su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur.

# Müxtəlif təyinatlı yeni obyektlər istifadəyə verilib

*Ölkədə inşaat işlərinin aparılması üçün bütün maliyyə mənbələrindən beş ay ərzində əsas kapitala 5.8 milyard manat məbləğində vəsait yönəldilmiş, 3.7 milyard manat məbləğində tikinti-quraşdırma işləri görülmüşdür. İnvestisiya qoyuluşu 2012-ci ilin müvafiq dövrünə nisbətən 27,4%, tikinti-quraşdırma işlərinə sərf olunmuş vəsaitin həcmi 42,5% artmışdır.*

Əsas kapitala yönəldilmiş vəsaitin 4.2 milyard manatını və ya 73,4%-ni daxili investisyalar təşkil etmiş və ötənilki səviyyədən 22,3%, xarici investisiya 44,1% yüksək olmuşdur.

Yanvar-may aylarında ümumi sahəsi 664.4 min kv.metr yaşayış evləri, 2818 şagird yerlik ümumtəhsil məktəbləri, növbədə 130 nəfəri qəbul etmək imkanına malik ambulatoriya-poliklinika müəssisəsi, 457 yerlik məktəbəqədər təhsil müəssisələri, 724 yerlik klub, Bakıda «Gəmi təmiri və gəmiqayırma» İstehsalat Birliyi, Heydər Əliyev Beynəlxalq Aeroportunda anqar kompleksi və digər istehsal və qeyri-istehsal təyinatlı obyektlər istifadəyə verilmişdir. Cari ildə inşaat işlərinin aparılması üçün dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş 7019.0 milyon manat vəsaitin 2474.7 milyon manatından istifadə olunmuşdur.

# Sadələşdirilmiş vergi bəyannaməsi

## *Hüquqi şəxslər üzrə 1№-li Əlavənin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi*

Qulu Soltanov,
sərbəst auditor

**Əvvəli ötən saylarımızda**

***Sətir 1.6 «Səhmlər və iştirak payları üzrə maliyyə qoyuluşları»***

**«dövr ərzində daxil olmuşdur» sütununda:** 06№-li «Uzunmüddətli maliyyə qoyuluşları» hesabının debet dövriyyəsi üzrə illik yekun məbləği, yəni hesabat ili ərzində sadələşdirilmiş vergi ödəyicisi olan hüquqi şəxs tərəfindən başqa hüquqi şəxs statusunda olan səhmdar cəmiyyətlərinin səhmlərinə, ölkə daxilində yaradılmış digər müəssisələrin (o cümlədən törəmə müəssisələrin) nizamnamə kapitalına, müəssisələrin xaricdəki kapitallarına uzunmüddətli qoyuluşların (investisiyalarının) məbləği əks etdirilir. Lakin 06№-li hesabda uçota alınan digər müəssisələrə verilmiş uzunmüddətli pul və digər borcların məbləğləri Əlavənin bu sətrində nəzərə alınmır. Sətrin adından göründüyü kimi, 06№-li hesabın tərkibindən yalnız səhmlər və iştirak payları üzrə məbləğlər Əlavənin bu sətrində əks etdirilir. Məsələn, DB06 - KR51, DB06 - KR52, DB06 - KR10, DB06 - KR41, DB06 - KR01 ikili yazılışları.

**«təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir» sütununda:** *Təqdim edilmişdir:* boş saxlanılır. *Silinmişdir:* Əlavənin bu xanasında sadələşdirilmiş vergi ödəyicisinin başqa müəssisələrin səhmlərinə, nizamnamə kapitalına, müəssisələrin xaricdəki kapitallarına uzunmüddətli maliyyə qoyuluşu kimi edilmiş vəsaitlərin azalması və ya geri alınması nəticəsində yaranan dövriyyələr əks etdirilir. Bu dövriyyələr əsasən əldə edilən başqa səhmdar cəmiyyətlərinin səhmlərinin (qiymətli kağızlarının) satışı, maliyyə qoyuluşu edilmiş (səhmlərini aldığı və ya nizamnamə kapitalına pay qoyuluşu etdiyi) müəssisənin ləğv olunması nəticəsində qoyulan vəsaitlərin geri alınması, həmçinin uzunmüddətli maliyyə qoyuluşlarının qısamüddətli maliyyə qoyuluşları hesabına keçirilməsi nəticəsində yaranır. Məsələn, əldə edilən digər səhmdar cəmiyyətlərinin qiymətli kağızlarının satışı üzrə DB48 - KR06 (həmçinin DB51 - KR48 və DB48 - KR80), nizamnamə fonduna pay qoyuluşu edilmiş müəssisənin ləğvi nəticəsində geri əldə olunan vəsaitlər üzrə DB tranzit hesab - KR06 (həmçinin DB01 - KR tranzit hesab, DB10 - KR tainzit hesab, DB51 - KR tranzit hesab, DB tranzit hesab - KR06, DB80 - KR06 və ya DB06 - KR80), uzunmüddətli maliyyə qoyuluşlarının qısamüddətli maliyyə qoyuluşları hesabına keçirilməsi üzrə DB58 - KR06 ikili yazılışlar nəticəsində yaranan dövriyyələr Əlavənin bu xanasında əks etdirilir. *Ləğv edilmişdir:* boş saxlanılır.

***Misal.*** Sadələşdirilmiş vergi ödəyicisi olan müəssisənin hesabat ilinin əvvəlinə başqa müəssisənin nizamnamə kapitalına pay qoyuluşu üzrə qalıq dəyəri 1000 manat təşkil edir. Hesabat ilində uzunmüddətli maliyyə qoyuluşları üzrə aşağıdakı ikili yazılışlar verilmişdir *(bax: Cədvəl 1)*.

Bu əməliyyatlar üzrə məbləğlər dövriyyə cədvəlində aşağıdakı kimi olacaqdır *(bax: Cədvəl 2)*.

Belə halda həmin göstəricilər bəyannamənin Əlavəsində aşağıdakı kimi əks etdirilməlidir *(bax: Cədvəl 3)*.

**Davamı növbəti sayımızda**

Cədvəl 1

| Əməliyyatların məzmunu | Debet | Kredit | Məbləğ |
|---|---|---|---|
| Başqa səhmdar cəmiyyətinin nominal dəyəri 2 manata bərabər olan 1000 ədəd səhmləri vahidinin dəyəri 3 manatdan alınmışdır (1000 ədəd x 3 manat) | 06 | 51 | 3000 |
| Ölkə daxilində yaradılmış digər müəssisənin nizamnamə kapitalına əmlak (təzə əsas vəsait) şəklində pay qoyuluşu edilmişdir | 06 | 01 | 2000 |
| Ölkə daxilində yaradılmış digər müəssisənin nizamnamə kapitalına pul şəklində pay qoyuluşu edilmişdir | 06 | 51 | 1500 |
| Nominal dəyəri 2 manata bərabər olan 200 ədəd səhm vahidinin dəyəri 5 manatdan satılmışdır (200 ədəd x 3 manat alış dəyəri) | 48 | 06 | 600 |
| Səhm alıcısı səhmin satış qiymətilə dəyərini bank hesabına ödəmişdir (200 ədəd x 5 manat) | 51 | 48 | 1000 |
| Səhm satışından əldə edilən mənfəət (1000 - 600) | 48 | 80 | 400 |
| Əvvəlki illərdə nizamnamə kapitalına qoyuluş edilmiş müəssisənin ləğvi nəticəsində əldə olunan pul vəsaiti | 51 | Tranzit hesab | 650 |
| Əvvəlki illərdə nizamnamə kapitalına qoyuluş edilmiş müəssisənin ləğvi nəticəsində əldə olunan material | 10 | Tranzit hesab | 150 |
| Tranzit hesab bağlanır | Tranzit hesab | 06 | 800 |
| Əvvəlki illərdə nizamnamə kapitalına qoyuluş edilmiş müəssisənin ləğvi nəticəsində yaranan zərər | 80 | 06 | 200 |

Cədvəl 2

| Hes. №-si | Hesabın adı | 01 yanvar 2012-ci il tarixə qalıq | | 2012-ci ildə dövriyyə | | 01 yanvar 2013-cü il tarixə qalıq | |
|---|---|---|---|---|---|---|---|
| | | *Debet* | *Kredit* | *Debet* | *Kredit* | *Debet* | *Kredit* |
| 06.1 | Alınmış səhmlər üzrə | | | 3000 | 600 | 2400 | |
| 06.2 | Pay qoyuluşları üzrə | 1000 | | 3500 | 1000 | 3500 | |
| | Cəmi | 1000 | | 6500 | 1600 | 5900 | |

Cədvəl 3

| Göstəricilər | Dövr ərzində daxil olmuşdur, manatla | Təqdim edilmişdir, silinmiş, ləğv edilmişdir, manatla | Hesabat dövrünün sonuna, manatla |
|---|---|---|---|
| 1.6 Səhmlər və iştirak payları üzrə maliyyə qoyuluşları | 6500 | Təqdim edilmişdir:<br>Silinmişdir: 1600<br>Ləğv edilmişdir: | 5900 |

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | **2** |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | **16** |
| 17 | 18 | 19 | **20** | 21 | 22 | **23** |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | **30** |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

20 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

beynəlxalq panoram

# Gürcüstanda elmi-praktik konfrans keçirilmişdir

*Tbilisi şəhərində «İnvestisiya mühiti - Avropa və Mərkəzi Asiya ölkələrində dövlət idarəçiliyinin inkişafı üçün texnologiyaların istifadəsi» mövzusunda elmi-praktik konfrans keçirilmişdir. 8 sessiyadan ibarət olan tədbir 3 gün davam etmişdir.*

Vergilər Nazirliyinin tədbirdə iştirak edən Vergi ödəyicilərinə xidmət idarəsinin Telefon-məlumat şöbəsinin əməkdaşı Fateh Mustafayev vergi sistemində tətbiq edilən elektron xidmətlər mövzusunda təqdimatla çıxış etmişdir.

Təqdimatda Vergilər Nazirliyinin elektron xidmətlərin tətbiqi sahəsində strategiyası, tətbiq olunan və tətbiq edilməsi nəzərdə tutulan elektron xidmətlər, həmin xidmətlərin tətbiqinin hüquqi əsasları və üstünlükləri barədə konfrans iştirakçılarına ətraflı məlumat vermişdir. Elektron xidmətlərin tətbiqi sahəsində ölkəmizin təcrübəsi iştirakçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Tədbir zamanı iştirakçılara Azərbaycan Respublikasında tətbiq olunan vergi növləri, Çağrı Mərkəzi, internet səhifəsi haqqında məlumatları əks etdirən müxtəlif bukletlər təqdim olunmuşdur.

Tədbirdə çıxış edən ekspertlərlə kiçik qruplarda müzakirələr zamanı Albaniya, Serbiya,Tacikistan, Moldova, Belarus və Qırğızıstandan olan iştirakçıların elektron bəyannamə, ƏDV depozit hesabı, onlayn kargüzarlıq, fiziki və hüquqi şəxslərin onlayn qeydiyyatı, mobil (ASAN) imza ilə olaqədar suallar Vergilər Nazirliyinin nümayəndəsi tərəfindən ətraflı cavablandırılmışdır.




# Ümumdünya standartına doğru daha bir addım

*Vergidən yayınanlar üçün imkanlar getdikcə daralır. ABŞ hökuməti vergilərlə bağlı informasiya mübadiləsi etmək üzrə ümumdünya standartının hazırlanmasını, bunun üçün xarici hesablar barədə ABŞ qanununun əsas kimi qəbul olunmasını təklif edir. Amerikalılar bu ideyanı «Böyük səkkizlik»in Şimali İrlandiyada keçirilmiş sammitində səsləndirmişlər.*

Söhbət Amerikanın FATCA (Foreign Account Tax Compliance Act) qanunundan gedir. Bu qanun artıq 2013-cü ilin əvvəlindən qüvvəyə minib. Qanuna görə, amerikalıların dünyanın istənilən yerində olan bank hesabları haqqında məlumat ABŞ vergi orqanlarına təqdim olunmalıdır. Əks halda, həmin bankların ABŞ-dakı bütün əməliyyatları 30 faiz dərəcəsi ilə vergiyə cəlb olunur.

«Biz hazırda ümumi dəstək müşahidə edirik və ümidvarıq ki, FATCA-ya əsaslanan hər hansı bir standartın hazırlanması üçün «Səkkizlik»dən də dəstək alacağıq. Bununla informasiya mübadiləsi üçün vahid qlobal standart yaranacaq», - beynəlxalq iqtisadiyyat üzrə ABŞ prezidentinin müşaviri Kerolayn Atkinson bildirmişdir.

Müşahidəçilərin bildirdiyinə görə, hazırda Rusiya bankları Amerika vergi orqanları ilə əməkdaşlıq məsələsinin həlli üzərində işləyirlər. Lakin başlıca problem bundadır ki, Rusiya bankları bundan sonra faktiki olaraq başqa ölkənin qanunçuluğu əsasında fəaliyyət göstərməli olacaqlar.

# Vergidən yayınma hallarının azaldılması üçün anlaşma memorandumu

*Böyük Britaniyanın ölkə xaricindəki torpaqları və Krallığa bağlı olan bölgələr Baş nazir Devid Kameron ilə görüşdən sonra vergidən yayınma hallarının azaldılması üçün anlaşma memorandumu imzalamışlar.*

D.Kameron bu sənədin imzalanmasını Şimali İrlandiyada keçirilən G8 ölkələrinin sammitindən əvvəl atılan müsbət addım kimi dəyərləndirmişdir.

Memorandumda Bermuda, Britaniya Virgin adaları, Kayman adaları, Gibraltar, Anquilla, Monsterrat, Türk və Kaikos adaları, Cersi, Guernsey və Men adası təmsil olunmuşlar. Anlaşma nəticəsində həmin bölgələr İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən rəhbərlik edilən Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında Konvensiya üzrə razılığa gəlmişlər.

# Türkiyədə e-fakturaya keçid sürətləndirilir

*Türkiyənin maliyyə naziri Mehmet Şimşək elektron faktura sisteminə (e-faktura) keçid üçün müraciət müddətinin sentyabrın 1-də bitəcəyini bildirmişdir. Vergi ödəyicilərinin vergi qanunlarına əməl etməsinin gücləndirilməsi və qeydiyyatdankənar fəaliyyətin qarşısının alınması məqsədilə Maliyyə Nazirliyinin ötən il apardığı tənzimləmə işləri ilə bəzi firmaların 2013-cü ildə e-fakturaya keçməsinə zərurət yaranmışdır.*



Şimşəyin mövzu ilə bağlı verdiyi şərhdə nazirliyin hazırladığı və müvəffəqiyyətlə tətbiq etdiyi elektron proqram təminatlarının vergi ödəyicilərinin iş və əməliyyatlarını asanlaşdırdığı bildirilmişdir. Bu proqram təminatlarının dövlət qurumlarına da nümunə olduğu, özəl sektor üzrə bir çox sahələrdə qənaət etməyə imkan yaradacağı qeyd edilmişdir. «Bu gün inkişaf etdirdiyimiz elektron proqram təminatları təkcə Orta Asiya və Yaxın Şərq ölkələri tərəfindən deyil, OECD hesabatında da təsdiq olunduğu kimi, dünyanın inkişaf etmiş ölkələri tərəfindən də yaxından izlənilir, onlar bundan nümunə götürürlər».

Nazirliyin son illərdə mərhələli şəkildə həyata keçirməyə çalışdığı ən əhəmiyyətli layihələrdən biri də e-faktura layihəsidir. Nazir M.Şimşək e-fakturanın şirkətlərin öz aralarındakı kağız fakturalaşmanın müddətlərindən irəli gələn problemləri aradan qaldıracağını demişdir.

E-fakturanın aşağıdakı üstünlükləri vurğulanmışdır: e-faktura ilə şirkətlər kağız fakturadan xilas olaraq çap, poçt və arxiv xərclərini əhəmiyyətli dərəcədə azalda biləcəklər; bu sistem sayəsində şirkətlər nağd vəsaitlərin idarə edilməsinin asanlaşdırılmasına və sürətləndirilməsinə nail olacaqlar; bu sistem ilə fakturaların əldə edilməsi anında reallaşacağına görə şirkətlər çox əmək tələb edən və vaxt aparan işlərdən xilas olacaqlar.

Dünyada, xüsusilə Avropa Birliyi (AB) ölkələrində e-fakturanın istifadə nisbətləri olduqca yüksəkdir. Aparılan son araşdırma hesabatının nəticələrinə görə, 2013-ci ildə bazarlardakı ümumi e-faktura həcminin AB-də orta hesabla 33%-ə çatacağı gözlənilir. Dünya miqyasında e-fakturadan istifadə nisbətinin 2013-cü ildə 5%-i keçəcəyi təxmin edilir. Türkiyədə isə bu nisbət təxminən 0,5% səviyyəsindədir».

E-fakturanın həm alıcı, həm də satıcı üçün vaxta olduqca yüksək qənaət imkanı yaratdığına işarə edən Şimşəyin sözlərinə görə, e-faktura tərtib etmək kağız faktura ilə müqayisədə satıcı üçün vaxta 57%, alıcı üçün isə 62% qənaət yaradır. Bundan əlavə, müəssisələr e-faktura üçün çəkdikləri xərclərin əvəzini 0,5-1,5 il ərzində çıxara bilirlər.

M.Şimşək yaxın gələcəkdə həyata keçiriləcək tədbirlər sayəsində e-fakturanın tətbiqinin digər sektorlara da əhatə edəcəyini və qarşıdakı illərdə dövlət müəssisələrinə göndəriləcək fakturaların bütünlüklə elektronlaşdırılması istiqamətində dəyişikliklər olunacağını bildirmişdir.

Nazir qeyd etmişdir ki, qaydalara əməl edilmədiyi halda, başqa sözlə, e-faktura təqdim edilməsi nəzərdə tutulan yerlərdə kağız faktura verənlər faktura yazmamış hesab ediləcəklər və bu cür vergi ödəyiciləri üçün Vergi Məcəlləsində nəzərdə tutulan cəza sanksiyaları tətbiq olunacaq.

***Türkiyə mətbuatının materialları əsasında hazırladı:***
**İxtiyar QASIMOV**

# Avropa Birliyi yeni mexanizm hazırlayır

*Avropa Birliyində vergidən yayınan şəxsləri aşkara çıxarmaq üçün təsirli mexanizm yaratmaq üzərində iş aparılır. Avropa Komissiyasının vergilər üzrə komissarı Alqirdas Şemetanın bildirdiyinə görə, bu təşəbbüs çərçivəsində AB vergi orqanları əhalinin maliyyə fəallığı barədə informasiyanı öz aralarında paylaşacaqlar.*

Bu, vergidən yayınmaya qarşı aparılan mübarizənin səmərəliliyini yüksəldəcək: yeni təklif sayəsində AB-yə üzv ölkələr onlara çatmalı olan rüsumların və vergilərin həm hesablanması, həm də tutulmasında öz işlərini daha yaxşı yerinə yetirə biləcəklər. «Bu zaman Avropa Birliyinin mövqeyi güclənəcək və dünya miqyasında düzgün vergi idarəçiliyinin daha ciddi normalarının xeyrinə təzyiq göstərə biləcək», - A.Şemeta bildirmişdir.

Avropa Birliyinin təklifi üzv ölkələrə imkan verir ki, dividendlər, gəlirlər kimi kateqoriyalar üzrə öz aralarında mübadilə etdikləri informasiyaları, maliyyə gəlirlərinin bütün formalarını və bank hesablarının məbləğlərini siyahıya daxil etsinlər. Bu, vergilər haqqında məlumatların avtomatik mübadiləsi ilə bağlı dünyada ən əhatəli sistem yaratmağa imkan verəcək. A.Şemetanın sözlərinə görə, belə bir addımın atılması vergidən yayınan insanlara qarşı mübarizədə ən güclü alət olacaq. Onu da qeyd etmək lazımdır ki, Avropa komissarının vergi qaçaqçılarına qarşı nəzarətin sərtləşdirilməsi təşəbbüsü Avstriya tərəfindən müqavimətlə qarşılanır - Avstriyanın Konstitusiyasına görə, bank sirrinin toxunulmazlığı təmin olunur.

krossvord




**Yuxarıdan aşağı:** 1.Bir sıra ingilisdilli ölkələrdə inzibati vəzifə. Onun hüquqları, öhdəlikləri və təyin edilməsi şərtləri müxtəlif ölkələrdə fərqli ola bilər; 2.Avropa və Asiyanın kəsişməsində yerləşən Yer kürəsində ən böyük göl; 3.Respublikamızda geniş yayılmış bəzək bitkisi, dadlı meyvələri olur; 4.Təknəvari quruluşlu gəmi, su nəqliyyatı vasitəsi; 5.Çevrənin mərkəzindən keçən vətər; 6.Azərbaycan Hərbi Dəniz Qüvvələrində ən yüksək hərbi rütbə; 9.İşıq zərrəciyinin elmi adı; 11.Rusiya Federasiyasının Perm vilayətində şəhər; 13.Orta əsr mənbələrində adı müşklə birlikdə çəkilən qiymətli maddə; 14.İspan rəssamı, heykəltəraş, qrafik, keramist və dizayner. 20-ci əsr incəsənətinin ən tanınmış şəxsiyyətlərindən biri (1881-1973); 15.Sualtı partlayıcı mərmi; 17.Xızı rayonunda kənd; 18.Malinin paytaxtı və ən böyük şəhəri; 21.Elektroqrafik prinsipi ilə işləyən qara toz. Monoxrom lazer printerlərin kartriclərində geniş istifadə olunur; 22.Şirkət və müəssisə tərəfindən göstərilmiş xidmətə görə ödəmə; 23.Pəncərə *(rusca)*. **Soldan sağa:** 1.Çar Rusiyasının artilleriya generalı, Azərbaycan Demokratik Respublikasının hərbi nazirinin müavini (1865-1943); 5.Çağırış, dindarın tanrıya, tanrılara və s. fövqəltəbii qüvvələrə müraciəti; 7.Yerli hüquqi və ya fiziki şəxs; 8.Genetik baxımdan limona bənzəyən sitrus meyvə; 10.ABŞ-ın ən böyük avtomobil şirkətlərindən biri; 12.Paskal qanunu əsasında qazların və mayelərin təzyiqini ölçən cihaz; 14.Hər hansı ixtiraya verilmiş məhdud tətbiq hüququna malik ən yüksək hüquq qoruyucusu; 16.Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsinin adı (1930-2013). SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, SSRİ və Azərbaycan xalq rəssamı; 19.Çəkisi 3 tonadək olan təkdırnaqlılar dəstəsinə aid məməli heyvan; 20.İnzibati ərazi bölgüsündə ən yüksək statusa malik subyekt; 24.Bir şeyin sistemini, quruluşunu və ya hissələri arasındakı rabitəni təsvir edən sadə çertyoj; 25.Qazaxıstanda kosmodrom; 26.Monqol və altay xalq inancında və şamanizmdə qayalardan, daşlardan və ya taxtadan düzəldilmiş bir növ kiçik yığma təpə və hörmət sahəsi; 27.Güllənin sürətini ölçən cihaz.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Elnur; 2.Pafos; 3.Rial; 4.Niamey; 5.Domkrat; 6.Varikap; 9.Tofiq *(Müttəlibov)*; 11.Abu; 13.Tuğra; 14.Veberit; 15.Romario; 17.Oba; 18.Ançous; 21.Esxil; 22.Tatar; 23.Akim *(Abbasov)*.

**Soldan sağa:**
1.Esperanto; 5.Div; 7.Naftalan 8.Ömər *(Xəlvəti)*; 10.Rast; 12.Velotrek; 14.Vurğun; 16.Biotop; 19.Bumeranq; 20.Seat; 24.Rurk *(Mikki)*; 25.Don Kixot; 26.Tio (m., tioefirlər); 27.Assembler.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:**
Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:**
Anar Əliyev
*anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:**
Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
**Ünvan:**
AZ 1141, Bakı ş.,
Hüseyn Cavid pr., 81

**Telefon:**
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
**Tiraj: 15000**

idman

# Milli Qurtuluş Gününə həsr olunmuş velosiped yarışları keçirilib



*İyunun 15-də Azərbaycan Velosiped İdmanı Federasiyasının təşkilatçılığı ilə Səbail rayonunda Şıx çimərliyi ilə üzbəüz dağlıq ərazidə yerləşən Velosiped parkında Milli Qurtuluş Gününə həsr olunmuş velosiped yarışları keçirilib. Tədbirə 500 nəfərdən çox velosiped həvəskarı qatılıb.*

Əvvəlcə 7-12 yaş arası uşaqlar arasında vaxt ilə fərdi ötüşmə keçirilib. Sonra həvəskar qızlardan ibarət dəstə qrup ötüşməsinə qatılıb. Daha sonra həvəskar velosipedçilər arasında fərdi ötüşmə ilə dağ (mountain bike) və şose yarışması da keçirilib.

Yarışın proqramına əsasən, 15 yaşlı uşaqlar (U15), gənclər (U17) və elit qruplar (U23) da öz qüvvələrini sınayıblar. U15 qrupuna daxil olan idmançılar 5,5 km, gənclər qrupu 15,5 km, elit qrup isə 29,6 km məsafə qət ediblər. Qaliblər diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Xatırladaq ki, yeni yaradılmış Velopark keçən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə salınmış yaşıllıqda yaradılıb. Parkın ərazisində ciddi yenidənqurma işləri aparılıb, 20 minə yaxın eldar şamı, sərv, müxtəlif bəzək ağacları və kollar əkilib. Parkda köhnə və yeni salınmış sərt döngəli yollar asfaltlanıb, dağ velosiped idmanının (mountain bike) inkişafı üçün xüsusi yollar çəkilib. Velopark həm peşəkar velosiped yarışlarının, həm də təlim-məşq toplantılarının keçirilməsi üçün lazımi şəraitə malikdir. Belə bir parkın istifadəyə verilməsi ölkədə velosiped idmanının kütləviləşdirilməsi və populyarlaşdırılması istiqamətində aparılan məqsədyönlü işlərin tərkib hissəsi olmaqla yanaşı, həm də paytaxtın əsas girişlərindən olan Salyan şosesinin ətrafına tamamilə yeni bir görkəm verib. Yaxın gələcəkdə isə bu ərazidə Bakı sakinlərinin ailəvi aktiv istirahəti, idmanın müxtəlif növləri ilə məşğul ola biləcəyi möhtəşəm bir idman şəhərciyinin salınacağı gözlənilir.

Velosiped idmanının ölkəmizin peşəkar idman növləri arasında yer almasının daha bir göstəricisi bu yaxınlarda Azərbaycanın ilk peşəkar velosiped komandasının - «Synergy Baku Cycling Project»in yaradılması olub. Məqsəd ölkəmizin ilk peşəkar klubunu formalaşdırmaqla beynəlxalq yarışlarda iştirak etmək, bununla da ölkəmizdə velosiped idman növünə marağın artırılmasına nail olmaqdır. Komandamız artıq dünya miqyaslı bir çox yarışlarda, o cümlədən «Tour d'Azerbaidjan 2013» beynəlxalq velosiped turnirində uğurlu nəticələr də göstərib.



Tədbirdə iştirak edən Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Rafiq Abbasov qəzetimizə açıqlamasında belə yarışların keçirilməsinin velosiped idmanının inkişafı, təbliği və populyarlaşması baxımından son dərəcə əhəmiyyətli olduğunu bildirib: «Bu yarışda həm həvəskarların, həm də paytaxt sakinlərinin tamaşaçı kimi fəal iştirakı onu göstərir ki, Azərbaycanda velosiped idmanına böyük maraq var. Bu maraq son illər ölkədə beynəlxalq miqyaslı velosiped turlarının keçirilməsi ilə bağlıdır. Hesab edirəm ki, belə yarışlara qatılan həvəskarların sayı ilbəil artacaq. Bu cür yarışlar həm də perspektivli idmançıların seçilməsi və aşkara çıxarılması baxımından mühüm əhəmiyyətə malikdir».

**S.MUSTAFAYEV**

## Azərbaycanlı velosipedçi Yaponiyaya səyahətə çıxıb

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə bağlı Azərbaycandan Yaponiyaya velosipedlə səyahətə çıxan Ramil Ziyadov Qazaxıstandan Rusiya ərazisinə keçmişdir. Bundan əvvəl səyyah Bərdə-Bakı-Dağıstan-Kalmıkiya-Həştərxan-Qazaxıstan-Özbəkistan marşrutu üzrə hərəkət edərək Daşkənd şəhərinə gəlmiş, sonra Qırğızıstan və Qazaxıstandakı səfirliklərimizdə olmuşdur.*

Bərdədən Yaponiyaya 14 min kilometrdir. Təxmini hesablamalara görə, səyyah Yaponiyaya sentyabrın sonu, oktyabrın əvvəllərində çatacaqdır. Səyyah keçdiyi şəhər, qəsəbə və kəndlərdə sakinlərə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyi, həmçinin ölkəmizin tarixi, mədəniyyəti və incəsənəti haqqında məlumat verir və götürdüyü elektron materiallar və kitabları yayır.

mozaika

## Hindistanda qədim məbəd yağıntını qabaqcadan xəbər verir

maraqlı

*Hindistanın Uttar-Pradeş ştatının Behata kəndində qeyri-adi məbəd vardır. Uzun illərdir ki, bu məbəd qarşıdakı mövsümdə düşəcək yağıntının miqdarı barədə kəndlilərə məlumat verir.*

Bütün məsələ tavanda əmələ gələn su damcılarındadır. Özü də indiyədək heç kəs bilmir ki, bu su damcıları necə yaranır, axı ətrafda heç bir sututar yoxdur, məbəd isə yüksəklikdə yerləşir.

«Mussonların məbədi» deyilən bu məbədin 100-dən çox yaşı var. Yaxın və uzaq kəndlərin sakinləri hər gün ibadət etməyə gəlirlər. Tavandan damcılayan suyu hamı görə və buna uyğun yağıntının çox, yaxud az olacağını müəyyən edə bilər. Ətrafda heç bir su mənbəyi və ya göl yoxdur. Yerli sakinlər deyirlər ki, əgər tavandan az damcı düşürsə, deməli, yağıntı az olacaq, çox damcı düşürsə, yaxşı yağışlar yağacaq. Hindistanda yağışlar mövsümü iyun ayından sentyabradək davam edir və bu yağıntılar yerli kənd təsərrüfatı sahələri üçün çox böyük əhəmiyyət kəsb edir. Bu sahələrin 55 faizinin başqa suvarılma mənbəyi yoxdur. Hindistan dünyada yeyinti məhsulları istehsal və ixrac edən ən böyük ölkələrdən biridir.

Bu mövsüm üçün qabaqcadan verilən xəbərlər sevindiricidir. Sakinlərin sözlərinə görə, bu məbədin «dediyi həmişə düz çıxır». Hər dəfə insanlar bu damcılara tamaşa etmək və onları gözləyən musson yağışlarının gücünü öyrənmək üçün buraya gəlirlər.

Yerli sakinlər bir də onu deyirlər ki, bu yerlərə Hindistanın müxtəlif guşələrindən çoxlu sayda tədqiqatçı və alim gəlmişdir. Xarici KİV-lərin verdikləri xəbərlərə görə, onlar bu qeyri-adi hadisənin izahını verməyə cəhd göstərsələr də, ümumi qənaətə gələ bilməmişlər.

## Dünya əhalisi kökəlir

tam ciddi

Planetin 1,5 milyard sakini artıq çəkidən, yarım milyard sakini isə piylənmədən əziyyət çəkir. Dünya Səhiyyə Təşkilatının (DST) proqnozlarına görə, «qlobal şişmanlar ordusu» artacaqdır. Deməli, şəkərli xəstələrin, onkoloji xəstəliklərdən, ürək-damar sistemi və tənəffüs orqanları xəstəliklərindən əziyyət çəkənlərin sayı artmaqda davam edəcəkdir. Bu sözləri DST-nin başçısı doktor Marqaret Çan BMT Baş Məclisi çərçivəsində qeyri-infeksion xəstəliklərə qarşı mübarizə probleminə dair yüksək səviyyəli müşavirədə demişdir.

Dünya Səhiyyə Təşkilatının baş direktoru Marqaret Çan xəbərdarlıq edir ki, piylənmə uşaqlar arasında daha sürətlə yayılır. Dünyanın bəzi regionlarında tosqun vətəndaşların əhalinin yarısını təşkil etməsi də DST-nin başçısını narahat edir.

Problemli ölkələr arasında Amerika Birləşmiş Ştatları da vardır. Rəsmi statistikaya görə, burada hər üç uşaqdan biri artıq çəkidən əziyyət çəkir. Özü də yaş artdıqca problem daha da ağırlaşır. Məsələn, Birləşmiş Qərargah Rəisləri Komitəsinin məlumatına görə, 9 milyondan çox gənc, yəni 17 yaşından 24 yaşınadək olan bütün amerikalıların 27 faizi sağlamlıqla bağlı hər hansı başqa problemə görə deyil, məhz artıq çəki səbəbindən hərbi xidmətə yararsızdır.

Amerika generalları piylənmə epidemiyasının milli təhlükəsizliyin vəziyyətinə təsirindən o qədər narahatdırlar ki, hətta ABŞ Konqresinə müraciət etmişlər. Hərbçilər Amerika məktəblərində qida normalarında dəyişikliklər edilməsi haqqında qanun layihəsi qəbul etməyi qanunvericilərdən xahiş edirlər. Onlar əmindirlər ki, məktəblilərin yeməyində duz, şəkər və yağ olmamalıdır. DST-nin baş direktoru Marqaret Çan da bu fikirlə tam razıdır.

DST-nin başçısı qeyd edir ki, piylənməyə qarşı mübarizə aparmaq üçün heç bir tədbir görülməsə, dövlət hər il bu xəstəliyin və onun doğurduğu bir çox başqa xəstəliklərin müalicəsi ilə əlaqədar tibbi xidmətlərin haqqının ödənilməsinə daha çox vəsait xərcləməli olacaqdır. Marqaret Çan hesab edir ki, siyasətçilər epidemiyanın həqiqi miqyasını mümkün qədər tez dərk etməli və onun qarşısını almaq üçün qəti tədbirlər görməlidirlər.

Ümumdünya İqtisadi Forumu və Harvard Universiteti ekspertlərinin fikrincə, qarşıdakı 20 ildə qeyri-infeksion xəstəliklər dünya iqtisadiyyatına 30 trilyon ABŞ dollarından baha başa gələcəkdir.

Artıq dünyanın bəzi regionlarında şəkər, xərçəng, insult və digər qeyri-infeksion xəstəliklərin yayılma miqyası iqtisadi nailiyyətlərin bütün üstünlüklərini heçə çıxara bilər. Belə ki, bir sıra ölkələrdə şəkərli xəstələrə təkcə xidmət göstərilməsinə milli səhiyyə büdcəsinin 15 faizə qədəri sərf olunur. Marqaret Çanın fikrincə, piylənməni yalnız qeyri-sağlam qidalanmaya görə vergi vasitəsilə cilovlamaq mümkündür.

## «Ad günün mübarək» mahnısının müəlliflik hüquqları barədə məhkəmə iddiası

dayərlar

*«Happy Birthday to You» («Ad günün mübarək») mahnısı artıq, demək olar ki, bütün yer üzünün mənəvi sərvətinə çevrilib: təntənəli və təntənəsiz ad günü məclislərini bu mahnıdan kənarda təsəvvür etmək çətindir. Bu günlərdə Nyu-York məhkəməsinə həmin mahnının müəllifliк hüquqlarının etibarsız sayılması barədə iddia ərizəsi verilmişdir.*

İddiaçı hazırda bu mahnı barədə sənədli film çəkən «Qud morninq tu yu prodakşnz» şirkətidir. Şirkət iddia edir ki, «Ad günün mübarək» mahnısı ictimai sərvətdir, «Uorner /Çeppell myuzik» firması onun səsləndirilməsi üçün uzun illər qanunsuz olaraq lisenziya rüsumları toplamışdır.

İddia ərizəsində deyilir: «Uorner/Çeppell myuzik» mahnının ərsəyə gəlməsindən 120 ildən çox vaxt keçdikdən sonra cəsarətlə, lakin qanunsuz şəkildə iddia edir ki, mahnının müəlliflik hüququ onun məxsusdur. Ərizədə bildirilir ki, firma indiyədək ümumilikdə 5 milyon dollardan çox lisenziya rüsumu almışdır. Məsələn, «Qud Morninq tu yu prodakşn» mahnıdan istifadə olunmasına görə bu ilin martında 1,5 min dollar ödəmişdir. «Ad günün mübarək» mahnısının müəlliflik hüququnun müddətinin ( əgər belə bir hüquq vardısa) ən geci 1921-ci ildə bitməsi barədə sənədlərlə təsbit edilmiş təkzibolunmaz sübutlar vardır. «Uorner/Çeppell myuzik»in bu mahnıya hər hansı hüququ olsa da, bu hüquq mahnının 1935-ci ildə nəşr olunmuş ayrı-ayrı fortepiano aranjirovkalarının səsləndirilməsi və yayılması hüququ ilə məhdudlaşır».

«Ad günün mübarək» mahnısı Luisvilldən (Kentukki ştatı) olan məktəb müəllimləri Petti və Mildred Hillər tərəfindən 1893-cü ildə yazılmışdır. Elə həmin il Kleyton Sammi adlı bir nəfər bu mahnının hüququnu almışdır.

«Uorren/Çeppell myuzik» iddia edir ki, əvvəllər K.Sammi ilə bağlı olan «Berç tri» şirkətini 1998-ci ildə alması ilə bağlı indi bu hüquqlar ona məxsusdur.

«Uorner/Çeppell myuzik» iddianı şərh etməmişdir. Qeyd edək ki, «Ad günün mübarək» mahnısı Ginnesin Rekordlar Kitabı tərəfindən dünyada ingilis dilində ən məşhur mahnı sayılmışdır.




**Müdriklər deyib ki...**



***«Heç kəsi öz iradəsinin əksinə varlı və ya sağlam olmağa məcbur etmək olmaz».***

***Con Lokk (1632-1704)***